# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Dünya elmində imzası olan böyük alim - Aida İmanquliyeva



3

# Azərbaycanın enerji diplomatiyası!



2

**Prezident İlham Əliyev: "Azərbaycan qazı hazırda Avropanın 10 ölkəsinə, o cümlədən Avropa İttifaqına üzv 8 dövlətə ixrac olunur"**


SƏS

№ 170 (7338)

19 sentyabr 2025-ci il.
Qiyməti 60 qəpik


# Dostluq və impiçment

*Trampla münasibətlər Paşinyana problemlər gətirib*



4

## Azadlıq və istiqlaliyyət fədaisi



6

## Həddindən ucuz olan malları almaq hansı təhlükələrə yol açır?



16

## Verter effekti nədir?



7

## Yol terrorunu KİM YARADIR?



6

## Mədəniyyət qıtlığı



11

# Azərbaycanın enerji diplomatiyası!

## Prezident İlham Əliyev: "Azərbaycan qazı hazırda Avropanın 10 ölkəsinə, o cümlədən Avropa İttifaqına üzv 8 dövlətə ixrac olunur"



***Azərbaycan Cənubi Qafqazın lider dövləti olaraq regionda sülhün bərqərar olması üçün bütün imkanları nəzərdən keçirir və xalqlar arasında iqtisadi, mədəni, siyasi, diplomatik əlaqələrin dərinləşməsini, insanların daha yaxşı, rifah içində yaşaması üçün yeni qərarların qəbul olunmasında əzmkarlıq nümayiş etdirir.***

Dünyada, xüsusilə də Avropa qitəsində enerji təchizatı və təhlükəsizliyi müasir dövrümüzün reallıqlarında vacib məsələ olduğundan Azərbaycan Prezidenti bu sahəyə də daim diqqət ayırır. Azərbaycan enerji ölkəsi kimi mövcud potensialını uğurla realizə edir. Neft və qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması ölkəmizə böyük həcmdə iqtisadi dividentlər qazandırır.

Həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət, ardıcıl islahatlar, sosialyönümlü yanaşma, neft gəlirlərinin insan kapitalına və sosial problemlərin həllinə yönəldilməsi isə xalqın rifahının yaxşılaşmasını təmin edib. İqtisadiyyatın uğurlu diversifikasiyası, çoxspektrli imkanlarının və resurslarının müəyyən edilib dünya bazarlarına çıxarılmasına yönəlmiş siyasət ənənəvi neft ölkəsi kimi tanınan Azərbaycanın yeni resurslarla yeni bazarlara çıxışını təmin edir. Aərbaycanda enerji təhlükəsizliyinə, xüsusilə "yaşıl enerji" siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyən edilib. 2030-cu ilədək olan dövrdə Azərbaycan "yaşıl artım" ölkəsinə çevrilməyi və təmiz ətraf mühitə nail olmağı sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyənləşdirib.

Son illər Azərbaycanın artan iqtisadi imkanları, yerləşdiyi əlverişli coğrafi mövqeyindən faydalanmaq bacarığı, beynəlxalq aləmə inteqrasiyası onun dünya ölkələri ilə əlaqələrinə müsbət təsir göstərib. Azərbaycan ilə dünya ölkələri arasında ikitərəfli münasibətlər iqtisadi, ticari, enerji, turizm və digər sahələri əhatə edir. Beynəlxalq hüquq normalarına, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanaraq, xarici siyasətini həyata keçirən Azərbaycanla qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək bir mərhələdədir. Son 22 il ərzində aparılan xarici siyasət, ölkədə həyata keçirilən sistemli islahatların nəticəsi olaraq xalqın həyatını köklü şəkildə dəyişməsi, 2020-ci ildə İlham Əliyevin qətiyyəti sayəsində torpaqlarımızın işğaldan azad edilməsi və 2023-cü ilin sentyabrında Xankəndiyə bayrağımızın asılması ölkəmizin imicinin daha da yüksəlməsinə səbəb oldu. Böyük nailiyyətlərin müəllifi olan Prezident İlham Əliyev dünya liderləri arasında seçilən dövlət başçılarından biridir.

Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində məlum "Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandum"un imzalanması olduqca vacib və əhəmiyyətli sənəd kimi qiymətləndirilir. Belə ki, Azərbaycanın həyata keçirilən bütün layihələrdə son dərəcə şəffaf şəkildə öz üzərinə götürdüyü öhdəliklərini icra etməsi, partnyorları arasında etibarlı tərəfdaş imicini qoruması yeni və daha sıx əməkdaşlıqlar üçün kifayət qədər münbit zəminlər yaratmaqda davam edir. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində fəal əməkdaşlıq uğurla davm edir. Azərbaycanın böyük layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişdirmək, yeniləmək gücündədir.

### "AZƏRBAYCAN REGİONDA SÜLH GÜNDƏLİYİNİN İRƏLİ APARILMASI ÜÇÜN SƏYLƏRİNİ BUNDAN SONRA DA DAVAM ETDİRƏCƏK"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosu qəbulu zamanı ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunaraq, Azərbaycan qazının hazırda Avropanın 10 ölkəsinə, o cümlədən Avropa İttifaqına üzv 8 dövlətə ixrac olunduğunu bildirib və ixrac coğrafiyasının genişləndiyini qeyd edib. Görüşdə Orta Dəhliz ilə Mərkəzi Asiyadan Azərbaycana gələn yüklərin həcmində əsaslı dərəcədə artımın müşahidə olunduğu diqqətə çəkilib və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Onu da bildirək ki, qəbul zamanı Marta Kos Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəlilədilməsi istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Qonaq bildirib ki, Avropa İttifaqı regionda davamlı sülhün təmin olunmasına yönəlmiş səylərə və Azərbaycanın humanitar minatəmizləmə sahəsindəki fəaliyyətinə dəstəyini bundan sonra da davam etdirəcək.

Komissar Marta Kos Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlığın qurulduğunu deyərək, həmçinin nəqliyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğunu vurğulayıb. Prezident İlham Əliyev bu ilin mayında Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşünü məmnunluqla xatırlayıb. Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, Azərbaycanın regionda sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini vurğulayıb. Regionda nəqliyyat bağlantılarının yaradılması üçün yaxşı imkanların olduğunu deyən Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə yolnəqliyyat infrastrukturunun qurulması ilə bağlı Azərbaycanın intensiv işlər gördüyünü qeyd edib. Bu xüsusda Zəngilana gedən avtomobil və dəmir yolu xətlərinin əhəmiyyətini vurğulayıb.

### AZƏRBAYCANIN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİNDƏ ARTAN ROLU

Ölkəmizin iqtisadi-maliyyə gücünün artmasına, Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə xidmət edən Cənub Qaz Dəhlizi layihəsinin bütün seqmentləri artıq fəaliyyətdədir. Cənub Qaz Dəhlizinin icrası zamanı Azərbaycan boru kəməri ərazisindən keçən ölkələrlə, eləcə də beynəlxalq maliyyə təsisatları, enerji şirkətləri, aparıcı ölkələrin hökumətləri və Avropa Komissiyası ilə çox sıx əməkdaşlıq əlaqələri qurub. Cənub Qaz Dəhlizi Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir və Azərbaycanın oynadığı rol Avropa İttifaqında qaz təchizatının şaxələndirilməsi səylərimiz baxımından mühüm əhəmiyyət daşıyır. Əlbəttə ki, Cənub Qaz Dəhlizi Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidentinin əməli fəaliyyətinin, iradəsinin nəticəsidir ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, qlobal əhəmiyyətli iqtisadi zonalar yaradılıb. Cənub Qaz Dəhlizinin, TANAP layihəsinin istifadəyə verilməsi uğurlu hadisələr sırasındadır. Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr xüsusi olaraq vurğulanmalıdır. Müasir dünyada Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilib.

Məlumdur ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Bu gün Azərbaycan dünyanın enerji təhlükəsizliyində xüsusi çəkisi olan ölkələr sırasında yer alır. Azərbaycan davamlı surətdə enerji təhlükəsizliyinin gücləndirilməsində etibarlı tərəfdaşa çevrilib. Qazın Azərbaycandan Avropaya 2020-ci ildə Cənubi Qaz Dəhlizi vasitəsilə nəql olunmasına başlanıb və Azərbaycan artıq etibarlı enerji tərəfdaşıdır.

Dövlət başçısının fəaliyyəti nəticəsində, neft və qazın bir neçə kəmər vasitəsi ilə Azərbaycandan Avropaya çıxarılması təmin edilib. Azərbaycan üçün nə vaxtsa hər hansı bir kəmərdə təhlükə yaransa, hansısa bir hadisə baş verərsə, digər kəmər vasitəsi ilə təbii sərvətini xarici dövlətə çıxara biləcək. "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri dünyada bənzəri olmayan mühəndis qurğusudur. Bu layihə Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir.

### YENİ ƏMƏKDAŞLIQ PLATFORMALARI

Azərbaycan milli maraqlara müvafiq olaraq həyata keçirilən praqmatik siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin iştirakçısıdır. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Odur ki, ölkəmizin enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində, sülhün bərqərar olunmasında xüsusi əhəmiyyətə malikdir. Gündən - günə investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması beynəlxalq miqyasda mövcud qarşılıqlı əməkdaşlığın səmərəli nəticələridir.

Regionda bu günə qədər həyata keçirilən və əməkdaşlığa təkan verən layihələrdə Azərbaycanın siyasi iradəsi və qətiyyəti həmişə öz sözünü deyib. Belə ki, Azərbaycan enerji ehtiyatlarının ixracında dünyanın aparıcı dövlətləri tərəfindən etibarlı bir strateji tərəfdaş kimi qiymətləndirilir. Müstəqil enerji siyasəti ölkəmizin beynəlxalq arenadakı mövqeyini, həmçinin Cənubi Qafqazın geostrateji təhlükəsizliyini daha da gücləndirir. Eyni zamanda, Azərbaycanın səmərəli enerji siyasəti yeni əməkdaşlıq platformaları müəyyənləşdirməklə yanaşı, Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə də öz önəmli töhfələrini verir.

***Zümrüd BAYRAMOVA***

# Dünya elmində imzası olan böyük alim - Aida İmanquliyeva

## Mehriban xanım Əliyeva: "Ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı"

***"Aida xanım unudulmaz bir şəxsiyyət idi. O, qısa, amma çox parlaq və xoşbəxt həyat yaşamışdır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləmişdir. Yüksək savadlı, ziyalı, vətənpərvər, prinsipial bir alim, eyni zamanda çox zərif, çox gözəl, bütün sevgisini ailəsinə bağışlayan, hər zaman ürəkdən kömək göstərməyə hazır olan bir qadın idi. Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin qurulub möhkəmlənməsinə yönəldilmişdir. Eyni zamanda, o, Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin, islam aləmində yayılmasına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda, demək olar ki, Aida xanımın bütün arzuları artıq reallıqdır və respublikamızın müsəlman ölkələri islam dünyası ilə nəinki elmi, mədəni əlaqələr, həm də ən yüksək səviyyədə iqtisadi, siyasi əlaqələr qurubdur. Bütün bu sahələrdə Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir". Bu fikirləri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Aida xanım haqqında yazır.***

Görkəmli şərqşünas-alim, istedadlı pedaqoq, incə qəlbə malik insan, gözəl övlad və həyat yoldaşı, fədakar ana... Qısa, lakin mənalı ömür sürmüş Aida İmanquliyeva yaddaşlarda belə qalıb. O, Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir.

### ƏRƏB ƏDƏBİYYATI ÜZRƏ İLK ELMLƏR DOKTORU, İLK PROFESSOR

Ən yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı olan Azərbaycan qadını iradəsi, saflığı, sədaqəti, qətiyyəti, dözümlülüyü ilə cəmiyyətimizdə böyük nüfuz qazanıb. Azərbaycan qadını yüksək pillələrdə dayanır, ölkə daxilində və beynəlxalq aləmdə böyük nailiyyətlər qazanır, ictimai həyatın bütün sahələrində öz sözünü inamla deyir. Azərbaycan qadını dövlətimizin inkişafına və cəmiyyətimizin yüksəlişinə özünün layiqli töhfələrini verir. Azərbaycanın ictimai-siyasi, mədəni həyatında kifayət qədər böyük nüfuza sahib olan qadınları olub və var. Azərbaycanın tarixində ilk azərbaycanlı qadın - ərəbşünas elmlər doktoru olan böyük alim Aida İmanquliyevanın da öz yeri, mövqeyi var. Bütün həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin köklərlə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edərək, şərəfli bir ömür yaşamış Aida xanım bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti ilə böyük nüfuz qazanmışdır. Onun bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti böyük istedada malik olduğunu göstərir. Aida xanımın qələmindən çıxan hər bir əsər gərgin, böyük bir zəhmətin nəticəsidir. XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın tərcümeyi-halına nəzər salsaq görərik ki, Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Görkəmli jurnalist, pedaqoq, əməkdar elm xadimi olan atası Nəsir İmanquliyev Azərbaycan mətbuatının bünövrəsini qoyanlardan biri olmuş və uzun müddət "Bakı" və "Baku" qəzetlərinin baş redaktoru işləmişdir. Aida İmanquliyeva Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil alıb. 1966-cı ildə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, daha sonra baş elmi işçi (1966-1976), Ərəb filologiyası şöbəsinin müdiri (1976-1988), elmi işlər üzrə direktor müavini (1988-1991) vəzifəsini icra edən Aida xanım 1991-ci ildən həmin institutda direktor vəzifəsində çalışmışdır. 1976-1988-ci illərdə, institutun ərəb filologiyası şöbəsinə rəhbərlik etdiyi müddətdə, 10 nəfər ərəbşünas namizədlik dissertasiyalarını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib.



Şərqşünaslıq İnstitutunun elmi və ictimai-siyasi həyatında yaxından iştirak edən Aida İmanquliyeva işgüzar fəaliyyətinə görə, 1988-ci ildə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunmuş, bir il sonra isə, uzun illər üzərində işlədiyi doktorluq dissertasiyasını müdafiə edərək, filologiya elmləri doktoru adına layiq görülmüşdür. Beləliklə, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor - qadın olan Aida İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. O, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs deyib. Buna görə də, SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə, ona "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə, 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilmişdir.

### YENİ ŞƏRQ ƏDƏBİYYATLARININ GƏLƏCƏKDƏ TƏDQİQİ ÜÇÜN MÜHÜM ZƏMİN

Aida İmanquliyeva 1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb dili müəllimi, filologiya elmləri namizədi M.Qarayevlə birlikdə "İnsan və quş" adlı hekayələr məcmuəsini çap etdirir. Bundan əlavə, Ərəb filologiyası şöbəsinin əməkdaşlarının tərcüməsində İraq yazıçılarının əsərlərindən ibarət kiçik bir antalogiyanın tərcüməsində və çapında da Aida xanımın gərgin əməyini xüsusi qeyd etmək lazımdır. "Ağ günlərin sorağında" adlanan həmin məcmuədə Aida xanımın tərcüməsində İraq yazıçısı Mahmud əz-Zahirin "Boğulmuş hıçqırıqlar" adlı hekayəsi də öz əksini tapıb. Bunlardan əlavə, Aida xanım müxtəlif illərdə respublikanın nəşriyyat orqanları tərəfindən ərəb ədəbiyyatı ilə bağlı çap olunmuş bir çox kitaba ön söz yazmış və xeyli sayda kitabın elmi redaktoru olmuşdur.

Aida İmanquliyevanın çoxsaylı elmi əsərlərində 3 monoqrafiya ("Mixail Nüaymə" və "Qələmlər birliyi", "Cubran Xəlil Cubran", "Yeni ərəb ədəbiyyatının korifeyləri" və 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır.

Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub-saxlanılması və inkişafı idealına sadiq qalmışdır. İstedadlı gənc alim 1967-ci ilin martında Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra, elmi fəaliyyətini Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda davam etdirmişdir.

1964-cü ildə "Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı" adlı ilk mətbu məqaləsi "Azərbaycan" jurnalında dərc olunmuşdur. O, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək, 1979-cu ildə Moskvada "Vostoçnıy almanax" jurnalında çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında məqalələri dövri mətbuatda - toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunmuşdur.

### ŞƏRQŞÜNASLIQ MƏRKƏZLƏRİNDƏ MƏHCƏR ƏDƏBİYYATININ ƏN SANBALLI TƏDQİQATÇISI

Aida İmanquliyeva 1971-1973 və 1979-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru vəzifəsində çalışıb. "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi" (1982), "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri" (1985), "Şərq filologiyası məsələləri" (1986-1987), "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" (1987), "Xarici Şərqin problemləri: tarix və müasirlik" (1988), "Şərq ədəbiyyatında ənənə və novatorluq" (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur. İctimai işlərdə fəal çalışmışdır. A.İmanquliyeva 1987-ci ildə Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü və 1983-cü ildən etibarən, sözügedən cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini olmuşdur.

Moskva, Bakı, Düşənbə, Hamburq, Kiyev, Sankt-Peterburq, Poltava, Tbilisi və digər şəhərlərdə keçirilən Şərq problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. Müasirləri onun haqqında belə yazırdı: "Aida xanım beynəlxalq aləmdə dünyanın görkəmli alimləri tərəfindən bütün şərqşünaslıq mərkəzlərində məhcər ədəbiyyatının ən sanballı tədqiqatçısı kimi qəbul edilir. Onun əsərlərindən tez-tez istifadə olunur, çıxış nöqtəsi kimi ona müraciət edilir və Aida xanımın fikirləri məhcər ədəbiyyatının ayrı-ayrı problemlərini öyrənmək üçün əsas mənbə rolunu oynayır. Aida xanımın təşəbbüsü ilə Azərbaycanda simpoziumlar çağırıldı. O, həmin simpoziumların həm təşkilatçısı, həm də əsas məruzəçilərindən biri idi. Bu da Aida İmanquliyevanın beynəlxalq elm aləmində nüfuzundan irəli gəlirdi".

### "QISA HƏYATINDA İNANILMAZ ZİRVƏLƏRİ FƏTH ETDİ"

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açmışdır. Böyük insanın çoxşaxəli, zəngin fəaliyyəti Aida xanımı xanımlıqdan məhrum edə bilməmişdi. O, hər şeydən əvvəl öz ailəsini, həyat yoldaşını çox sevən gözəl qadın, qayğıkeş bir ana idi. Aida xanımda Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətlər təcəssüm olunurdu. Onun ömür yolu həyatın, varlığın əsasında duran mənəvi bağları qurmağa, tamlığa və vəhdətə can atan bir insan idrakının, bir ana, bir qadın ruhunun təcəssümü olub. O, dünyamıza, xalqımıza, cəmiyyətimizə yüksək intellekti, zəngin mənəvi keyfiyyətləri ilə nümunə olan övladlar bəxş edib.

Aida xanım Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, akademik Nərgiz xanım Paşayevanın anasıdır. Mehriban xanım Əliyeva Aida xanımın onun bir şəxsiyyət kimi yetişməsində, kamilləşməsində rolunu belə dəyərləndirib: "Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalır. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi".

Bu gün Aida xanımın arzu və əməlləri Mehriban xanım Əliyevanın, Nərgiz xanım Paşayevanın timsalında əzmlə davam etdirilir. Bu gün biz fəxrlə deyə bilərik ki, Aida xanım İmanquliyevanın ailə ənənələri onun nəcabətli övladlarının timsalında yaşayır və nəsildən-nəslə keçərək əbədilik qazanır.

Qeyd edək ki, görkəmli ədəbiyyatşünas xanım A.İmanquliyeva 1992-ci il sentyabrın 19-da Bakıda dünyasını dəyişib. Bu gün XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın xatirə günüdür.

***Zümrüd BAYRAMOVA***

# Dostluq və impiçment

## *Trampla münasibətlər Paşinyana problemlər gətirib*

ABŞ prezidenti Donald Tramp özünün Truth Social sosial media hesabında Ermənistan və Azərbaycan liderləri Nikol Paşinyan və İlham Əliyevlə birgə fotosunu yerləşdirib. Tramp iki respublika arasında müharibənin sona çatmasına kömək etməkdən və bu ”böyük liderlər və insanlarla” dostluq etməkdən şərəf duyduğunu bildirib. ”Mən sülhün daha da institusionallaşdırılmasına və Üçtərəfli Sülh Emalı Sazişinin (TRIPP) həyata keçirilməsinə sadiq olduğumu bir daha təsdiq edirəm”, - Paşinyan cavab verib. Əvəzində Ermənistanın baş naziri Nikol Paşinyan impiçment təhlükəsi ilə üz-üzə qalıb. Hökumət başçısı beynəlxalq dəstək alır, amma müxalifət ”milli maraqlara xəyanət etdiyi üçün” onun istefasını tələb edir. Paşinyanın rəqibləri hesab edirlər ki, o, indi hakimiyyətdən uzaqlaşdırılmasa, yayda keçiriləcək parlament seçkilərinə qədər digər cinayətlər törədəcək. Azərbaycan Prezidenti İlham Əliyev isə öz növbəsində amerikalı həmkarını Bakı ilə Vaşinqton arasında ”əbədi dostluğun və formalaşmaqda olan strateji tərəfdaşlığın memarı” adlandırıb. O, həmçinin Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəliləyişində Trampın ”mühüm rolunu” dərin qiymətləndirdiyini vurğulayıb.

## Bu arada...

İrəvanda heç də hamı danışıqların gedişinə müsbət yanaşmır. Xüsusən də ”Mənim şərəfim var” müxalifət bloku Paşinyanın gələn ilin yayında keçiriləcək parlament seçkilərinə qədər düzəlməz bir iş görə biləcəyini əsas gətirərək, onun tez bir zamanda istefasını tələb edib. Bundan başqa, müxalifət öz şikayətləri arasında ”Qarabağın itirilməsi”ni, Ermənistanın ərazi bütövlüyünün pozulmasını, ”Erməni Soyqırımı”nın beynəlxalq səviyyədə tanınması prosesinin pozulmasını, Bakının birtərəfli güzəştlərə getməsini, Rusiya ilə münasibətlərin pisləşməsini fakt kimi ortaya qoymağa cəhd edir.

Bununla belə, Paşinyanın impiçmenti çətin olacaq. ”Mənim şərəfim var” Ermənistan parlamentində altı nəfərlə təmsil olunur və fraksiyasına 28 deputatın daxil olduğu digər müxalifət bloku ”Ermənistan” onları dəstəkləməyə hazırdır. Lakin təşəbbüsün gündəliyə daxil edilməsi üçün 36, istefanın təsdiqi üçün isə 54 səs lazımdır. Politoloq Qrant Mikaelyan hesab edir ki, ”Mənim şərəfim var” ən yaxşı halda öz təklifi ilə bağlı yalnız iki müstəqil deputatın iştirakı ilə parlamentdə müzakirə apara biləcək. Hakim Vətəndaş Müqaviləsi (MK) partiyası parlamentdə üçdə iki səs çoxluğuna malikdir, ona görə də Paşinyan üçün heç bir təhlükə yoxdur. Üstəlik, parlament müxalifəti çətin günlər yaşayır. Onların elektoratı mahiyyət etibarı ilə öz partiyasını yaradan Samvel Karapetyana keçib. Sosioloqların fikrincə, bu siyasi qüvvə artıq MK-dan sonra ən populyar ikinci qüvvədir.

Ekspert eyni zamanda müxalifətin məhz nədən qorxduğunu açıqlayıb. ”Əvvəla, seçkilərə qədər Paşinyan Azərbaycanla sülh müqaviləsi imzalaya, ona Naxçıvana dəhliz (”Tramp yolu”) verə bilər və ya Bakının xeyirinə İrəvana əlavə öhdəliklər qoya bilər. Artıq məlumdur ki, ATƏT-in Minsk Qrupu buraxılacaq, beynəlxalq qurumlar isə Azərbaycan hakimiyyətinə qarşı bütün iddialarını geri götürəcək. Bundan başqa, artıq aydındır ki, hakimiyyətin yay dalğası, həbslər Vaşinqton sammitinə hazırlıqla bağlı idi, Paşinyan əvvəlcədən etiraz aksiyaları təşkil edə bilən hər kəsi zərərsizləşdirməyə çalışdı və bunu bacardı.

Bundan başqa, Mərkəzi Bankın sədri Martin Qalstyan hökumətə ortamüddətli perspektivdə ekspansiyalı xərclərdən çəkinməyi tövsiyə edib, çünki bu, daxili tələbata təzyiqi artıra bilər, büdcə kəsiri isə artıq hədəf 4,5% əvəzinə 5,5% təşkil edir. Seçkilər öncəsi Paşinyan buna şirnikləndirilə bilər. Seçici dəstəyini təmin etmək üçün siyasətçilər tez-tez dövlət sektoru işçilərinə bonuslar paylayır və ya maaşları artırırlar.



## 2019-cu il sülh planında nə yazılmışdı?

Bəli, biz 2019-cu ilin iyulunda ABŞ, Fransa və Rusiyanın təqdim etdiyi və ”Rusiyanın Dağlıq Qarabağa daxil olmasını” nəzərdə tutan sülh planının dərc olunmasını tələb edirik. Bunu Erməni Milli Konqresinin sədr müavini Levon Zurabyan öz Facebook səhifəsində yazıb. ”Hökumət məmurlarının aldadıcıların paradı davam edir. Onlar həyasızcasına yalan danışırlar ki, guya planda cəmi 5 rayonun qaytarılması nəzərdə tutulurdu, eyni zamanda Ermənistanın təkcə bütün Dağlıq Qarabağ və Laçın dəhlizinə (müəyyən müddətə) deyil, həm də bütün Laçın və Kəlbəcər üzərində nəzarəti saxlaması müddəası nəzərə alınmayıb.

”Nikol Paşinyan avqustun 23-də çıxışında etiraf etsə də, təklif olunan planı rədd etmədiklərini yalan danışırlar. Yalan danışırlar ki, planı xalqdan gizlətməyiblər, Paşinyan isə 2019-2020-ci illərdə hər hansı yeni danışıqlar sənədinin mövcudluğunu inkar edib. Yalan deyirlər ki, eyni sənəd 2016-cı ildən danışıqlar masasındadır, halbuki Paşinyan dövründə ona xeyli düzəliş edilib. Bütün müsahibə (Hakim Mülki Müqavilə partiyasından olan deputat Arman Yeqoyanla - red.) ”nikolistlərin” şüarına çevrilmiş demaqogiya və yalandan ibarətdir. Planı dərc edin, yalançılar, dərc edin. Bu barədə sizin yalanlarınız yox, mətni”, - Zurabyan qeyd edib.

## ”Mitinq, yoxsa sülh şansı?

Politoloq Andranik Hovhannisyan yazır ki, Ermənistan Milli Konqresi Partiyasının sədr müavini Levon Zurabyan iqtidaryönlü deputat Arman Yeqoyanın 2019-cu il sülh planında Dağlıq Qarabağ ətrafındakı 5 rayonun yalnız Azərbaycana verilməsini nəzərdə tutması barədə iddiasını yalan adlandırıb. Zurabyan yenidən Paşinyanı 2019-cu ilin iyulunda ATƏT-in Minsk Qrupunun həmsədrlərinin (ABŞ, Fransa və Rusiya) təklif etdiyi bütün planı dərc etməyə çağırıb. ”Onlar həyasızcasına yalan danışaraq, planda yalnız beş rayonun verilməsini nəzərdə tutduğunu iddia edərək, Ermənistanın nəzarətinin nəinki Dağlıq Qarabağ və Laçın dəhlizi üzərində (müəyyən müddətə) deyil, həm də İrəvan və Bakı yekun status barədə razılığa gələnə qədər bütün Laçın və Kəlbəcər rayonları üzərində saxlanmasına məhəl qoymadan, yəni qeyri-müəyyən şəkildə yalan danışırlar”.

Belə çıxır ki, Paşinyan 2019-cu ilin iyulunda ATƏT-in Minsk Qrupunun həmsədrlərindən Qarabağ münaqişəsinin sülh yolu ilə həlli planını alıb. Məsələni qansız həll etmək əvəzinə, bir ay sonra o, Qarabağa gedib və orada kütləvi mitinq təşkil edib və açıq şəkildə ”Qarabağ Ermənistandır, nöqtə” deyib. Bu, faktiki olaraq Bakıya İrəvanı danışıqlar prosesini pozmaqda və 2020-ci ilin hərbi təcavüzünü qanuniləşdirməkdə ittiham etmək imkanı verib. Müharibənin fəlakətli nəticələrindən sonra Paşinyan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb və Ermənistan ictimaiyyətini Qarabağ hərəkatından əl çəkməyə çağırıb.

## İran səfirinə əlvida...

Baş nazir Nikol Paşinyan diplomatik fəaliyyətini başa vuran İran İslam Respublikasının Ermənistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mehdi Sobhanini qəbul edib. Nikol Paşinyan səfirə sıx əməkdaşlığa görə təşəkkür edib və Ermənistanla İran arasında bütün sahələrdə əməkdaşlığın son illər yeni səviyyəyə yüksəldiyini qeyd edib. Paşinyan Mehdi Sobhaninin bu prosesə şəxsi töhfəsini xüsusi vurğulayıb. Eyni zamanda, baş nazir ötən ay İran prezidenti Məsud Pezeşkianın Ermənistana rəsmi səfərinin ikitərəfli münasibətlərin ardıcıl inkişafı və genişlənməsinə yeni təkan verdiyinin əhəmiyyətini vurğulayıb.

## ”Mənim şərəfim var”dan bəyanat

”Mənim şərəfim var” fraksiyası Ermənistan Milli Assambleyasına milli böhran və səmərəsiz dövlət idarəçiliyi ilə bağlı baş nazirə etimadsızlıq bəyanatı layihəsi təqdim edib. Bəyanatda xüsusilə qeyd olunur ki:

”Nikol Paşinyanın rəhbərlik etdiyi hökumət nəinki üzərinə düşən vəzifələri yerinə yetirə bilmədi, həm də dövlətin qarşısında duran çağırışlara effektiv cavab verə bilmədi, tez-tez yeni çağırışlar yaratdı. Hazırkı liderlərin hərəkətləri hakimiyyətin bütün səviyyələrində sistemli böhrana səbəb oldu. Bu siyasət Ermənistan üçün ciddi problemlər yaratdı, ölkənin gələcəyini təhlükə altına qoydu. Milli təhlükəsizlik sistemi pozulub, Ermənistanın suverenliyi, ərazi bütövlüyü, Qarabağın təhlükəsizliyi və hərbi təhdidlərin zərərsizləşdirilməsi üçün ağır nəticələrə gətirib çıxarıb.

Ermənistanın ərazi bütövlüyü ciddi şəkildə təhdid edilib. Hökumət nəinki ölkənin suveren ərazisinin mühafizəsini təmin etməyib, həm də ərazi nəzarətini bərpa etmək, işğalı faktiki olaraq qanuniləşdirmək öhdəliyindən rəsmən imtina edib. Xarici hərbi qüvvələrin Ermənistan ərazisində olmasının ”mübahisəli sərhəd məsələsi” olması ilə bağlı dəfələrlə bəyanatlar Ermənistanın suverenliyini şübhə altına alır. Hökumət nəinki ”Erməni Soyqırımı”nın beynəlxalq səviyyədə tanınmasını prioritet hesab etmir, hətta onun beynəlxalq səviyyədə tanınması prosesindən tamamilə imtina edib. Mövcud hakimiyyətin xarici siyasəti nəticəsində Ermənistanın beynəlxalq nüfuzuna ciddi zərbə vurulub. Nikol Paşinyan tərəfindən irəli sürülən birtərəfli güzəştlər əsaslanan diplomatiya Azərbaycanın Ermənistana qarşı tələblərini gücləndirir və təcavüzün yenidən başlanması riskini daşıyır”.

## Katolikos Papasına nə dedi?

Bütün ermənilərin katolikosu II Karekin Vatikanda Roma Papası XIV Leo ilə görüşü zamanı ”Azərbaycanın işğalı altında olan Artsaxın erməni mənəvi və mədəni irsi”nin məhv edilməsi təhlükəsindən danışıb. Erməni Apostol Kilsəsinin rəhbəri həmçinin Bakı həbsxanalarından ”erməni hərbi əsir və girovlar”ın azad edilməsi üçün addımların atılmasının vacibliyini vurğulayıb. O, XIV Leo ilə ”Artsaxdan zorla köçürülmüş ermənilər”in problemlərindən danışıb. Kilsə rəhbərləri dünyada baş verən fəlakətlərə və həyəcanverici hadisələrə, eləcə də Ermənistanın və erməni xalqının üzləşdiyi çağırışlara və sınaqlara toxunublar.

Görüş Castel Gandolfo Apostol Sarayında baş tutub. Katolikos Roma Papasını seçilməsi və 70 illik yubileyi münasibətilə təbrik edib. O, iki kilsə arasında əlaqələrin bundan sonra da eyni qardaşlıq ruhunda inkişaf edəcəyinə əminliyini ifadə edib. Patriarxlar dünyada ədalətin təbliğində və xalqlar arasında harmonik birgə yaşayışın təmin edilməsində kilsələrin missiyasının vacibliyini vurğulayıblar. Onlar insan hüquqlarının müdafiəsi, firavan və təhlükəsiz dünyanın qurulması üçün səylərin birləşdirilməsinin vacibliyini qeyd ediblər.

Bəli, erməni müxalifəti də, özünü siyasətdən ayrı tutmağı bacarmyan kilsə də ilk imkandaca Azərbaycana, xalqımıza qarşı ifrətini püskürür. Erməniləri savaşa hazırlamağın yeganə çıxış yolu olduğunu hər addımda, imkan yarandığı fürsətindəcə uca səslə, bağıraraq deyir. Azərbaycan isə Qalib ölkə kimi sülhün tərəfdarı olduğunu bəyan edir. Biz seçimimizi etmişik, bəs qarşı tərəf?

***V.VƏLİYEV***

# “Antiterror tədbirləri Azərbaycanın müasir tarixində mühüm bir mərhələdir”

***“Azərbaycan 2020-ci ilin payızında baş vermiş 44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində öz torpaqlarının mühüm bir hissəsini - Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və digər əraziləri işğaldan azad etdi. Bu müharibə Azərbaycanın tarixi ədaləti bərpa etməsi və beynəlxalq hüquqa əsaslanan suveren hüquqlarını bərpa etməsi baxımından mühüm bir dönüş nöqtəsi oldu”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.***



Onun sözlərinə görə, buna baxmayaraq, bəzi bölgələr - xüsusilə Xankəndi, Xocavəndin bir hissəsi, Ağdərə və ətraf ərazilər hələ də separatçı qüvvələrin və onların havadarlarının nəzarəti altında qalmaqda davam edirdi: ”Bu ərazilərdə qeyri-qanuni silahlı birləşmələr mövcudluğunu qoruyub saxlayır, təxribatlar törədir və Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə qarşı müxtəlif təxribat xarakterli hərbi hücumlar həyata keçirirdilər. Bundan əlavə, həmin ərazilərdə yaşayan erməni əsilli əhali üzərində təsir və nəzarət separatçılar və Ermənistan tərəfindən davam etdirilir, bölgədəki sabitliyə və reinteqrasiya prosesinə maneələr yaradılırdı. Bütün bunlar Azərbaycanın tam suverenliyinin və ərazi bütövlüyünün bərpasına əngəl törədirdi. Azərbaycan üçün bu vəziyyət qəbuledilməz idi, çünki ölkə yalnız bütün beynəlxalq tanınmış sərhədləri daxilində tam nəzarəti təmin etdikdə öz suverenliyini tam mənada bərpa etmiş sayılırdı.Bu reallıq fonunda, 2023-cü ilin sentyabrında Azərbaycan Silahlı Qüvvələri lokal xarakterli antiterror tədbirləri həyata keçirməyə qərar verdi. Bu əməliyyatların məqsədi bölgədəki qeyri-qanuni silahlı birləşmələrin tamamilə zərərsizləşdirilməsi, konstitusiya quruluşunun bərpası və separatçılığın kökünün kəsilməsi idi. Əməliyyatlar qısa zaman ərzində uğurla həyata keçirildi və separatçı qüvvələr təslim olmağa məcbur oldular”.



Politoloq fikirlərinə davam edərək həmçinin qeyd edib ki, antiterror tədbirləri nəticəsində Azərbaycan nəinki Xankəndi, Xocavənd və Ağdərə kimi mühüm strateji ərazilərə nəzarəti bərpa etdi, həm də bölgədə qanunçuluğu və konstitusiya əsaslarını bərqərar etdi:

”Bununla da Azərbaycan Respublikası öz ərazi bütövlüyünü tam şəkildə təmin etdi və dövlət suverenliyini bütün Qarabağ ərazisində bərpa etdi. Bu hadisə Azərbaycanın müasir tarixində mühüm bir mərhələ olmaqla yanaşı, eyni zamanda regionda davamlı sülh, təhlükəsizlik və inkişaf üçün yeni imkanlar yaratdı. Azərbaycan dövləti bəyan etdi ki, ərazi bütövlüyü təmin olunduqdan sonra bölgədə yaşayan erməni əsilli vətəndaşların reinteqrasiyası üçün bütün zəruri addımlar atılacaq və onların hüquqları Azərbaycan Konstitusiyası çərçivəsində qorunacaq”.



***Arzu Qurbanlı***

# “Neft savaşı gedirdi və optimal bir variant seçilməli idi”

“20 sentyabr həddindən artıq ağır və çətin bir dövr idi. Ümummilli lider hakimiyyətə təzəcə gəlmişdi. Ölkənin daxilində ağır məsələlər mövcud idi və onları həll etmək lazım idi. Xarici siyasətdə çoxlu boşluqlar və problemlər var idi, onlar da həll olunmalıydı. Ən vacib məsələ isə həm daxili, həm də xarici siyasət baxımından neft strategiyasının müəyyən olunması idi”. Bu sözləri SİA-ya açıqlamasında Azad Vətən Partiyasının sədri Akif Nağı deyib.




Onun sözlərinə görə, hər tərəfdən Azərbaycanın üzərinə hücumlar edilirdi: ”Hər kəs Azərbaycan neftini öz nəzarətinə götürməyə çalışırdı. Hər kəs bilirdi ki, Azərbaycanın iqtisadiyyatı həmin dövrdə neft sənayesinin üzərində inkişaf edəcək. Düşmənlər çalışırdılar ki, Azərbaycanın neft sənayesi düzgün yola çıxmasın, düzgün təşkil olunmasın. Dost ölkələr isə dəstək verməyə çalışırdılar. Amma hər şey Azərbaycanın özündən asılı idi. Kənardan dəstək ilə heç nə əldə etmək mümkün deyildi. O dövrdə Azərbaycanın nefti üzərində böyük maraqlar mövcud idi. Yüz il əvvəl də Azərbaycanın neftinə görə dünya dövlətləri arasında mübarizə gedirdi və həmin vəziyyət hələ də davam edirdi. Bir tərəfdən Rusiya öz iddialarını həyata keçirməyə çalışırdı, digər tərəfdən Qərb dövlətləri. Başqa dövlətlər də Azərbaycanın hakimiyyətinə təsir göstərərək neft və qaz mənbələrini öz nəzarətlərinə götürmək istəyirdilər. Qaz məsələsi isə hələ sonradan - 2008-2010-cu illərdən sonra ön plana çıxdı. Azərbaycan qazı öyrənildi və dünya bazarında əsas məhsullardan birinə çevrildi. Amma o dövrdə əsas mübarizə neft üzərində gedirdi. Neft savaşı gedirdi və optimal bir variant seçilməli idi.

Azərbaycanın siyasi lideri Heydər Əliyev bu çətin şəraitdə çoxsaylı axtarışlardan sonra ən optimal variantı seçdi - kollegial şəkildə məsələyə yanaşma. Yəni yalnız bir ölkə və ya böyük şirkətlə müqavilə bağlamaq Azərbaycanın maraqlarına uyğun deyildi. Bu, əlavə qısqanclıq və təzyiqlərə səbəb ola bilərdi. Nəticədə qərara gəlinir ki, ən azı səkkiz ölkə ilə bu məsələ müzakirə edilsin.

Bu ölkələrin içində qardaş Türkiyə, Fransa, Almaniya, Yaponiya, Səudiyyə Ərəbistanı və digər aparıcı dövlətlər var idi. Onların aparıcı şirkətləri də bu prosesə qoşuldu - ümumilikdə 13 şirkət. Nəticədə Azərbaycanın maraqları qorundu. Azərbaycanın 80%-dən artıq neft gəlirinin ölkədə qalması razılaşdırıldı. Bu, çox vacib idi. Həm də müxtəlif dövlətlərin iddiaları birləşdirilərək neytrallaşdırıldı. Ən əsası, ortada Azərbaycanın maraqları dayandı. Bu səbəbdən 20 sentyabr Neftçilər Günü kimi qeyd olunur. Bu tarix Azərbaycanın neft strategiyasının başlanğıcıdır. Sonrakı illərdə də bu siyasətin nəticələri özünü göstərdi. Həmin dövrdə Azərbaycanın neft sənayesi demək olar ki, dayanmışdı, xəzinəsi boş idi. Lakin bu strategiyanın nəticəsində neft istehsalı bərpa olundu, ölkənin büdcəsi formalaşdı. Bu, Azərbaycanda sosial proqramların həyata keçirilməsinə, iqtisadiyyatın gücləndirilməsinə və ordu quruculuğuna imkan yaratdı. Büdcə və maliyyə olmadan ordu yaratmaq və silah-sursat almaq mümkün deyildi. Neft strategiyası Azərbaycanın siyasi təməl daşı oldu və nəticələri sürətlə özünü göstərdi”.

Sədrin sözlərinə görə, 2000-ci illərin əvvəllərindən etibarən neft sənayesi inkişaf yoluna çıxdı. Bu strategiya bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2017-ci ildə həmin müqavilənin müddəti yenidən uzadıldı və yeni ölkələr də prosesə qoşuldu. Neft-qaz xətti paralel şəkildə uğurla davam etdirilir. Amma əsas məsələ odur ki, bu strategiya ilə yanaşı qeyri-neft sektoru da inkişaf etdirilir.: ”Azərbaycan rəhbərliyinin apardığı siyasət təkcə neftə söykənmir. Qeyri-neft sektorundan olan ixracın payı ildən-ilə artır və bu da davamlı inkişafın göstəricisidir. Sonda demək olar ki, o dövrdə təməli qoyulan neft strategiyası bu gün də öz töhfəsini verir. Azərbaycanın 2020-ci ildə torpaqlarını azad etməsi, azad edilmiş ərazilərdə bərpa işlərinin aparılması və həm xarici, həm də daxili siyasətdəki uğurlar bu strategiyanın düzgün müəyyənləşdirilməsi ilə mümkün oldu. Bu, Azərbaycanın gələcəyinə qoyulan möhkəm təməldir”.

***Günel Fərzəliyeva***

# Azadlıq və istiqlaliyyət fədaisi

## Dövlət başçısının Sərəncamı ilə Fətəli xan Xoyskinin 150 illik yubileyi qeyd olunacaq

**_Görkəmli dövlət və siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri və ilk baş naziri Fətəli xan Xoyskinin 150 illiyi tamam olur. "Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Azərbaycanın görkəmli siyasi və dövlət xadimi Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Fətəli xan Xoyskinin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirəcəkdir._**



XX əsrin əvvəllərindən milli-mədəni intibahını yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndələrindən olan Fətəli xan Xoyski geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət kimi tarixdə iz salmışdır. Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, tarixi İstiqlal Bəyannaməsini imzalayanlardan biri olmuşdur. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət kabinetləri Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarını atdığı vaxtdan etibarən demokratik dövlət idarəçiliyinin təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və hərbi quruculuq sahələrində mühüm nailiyyətlər qazanmış, Azərbaycanın müstəqilliyinin xarici dövlətlər tərəfindən tanınması və diplomatik münasibətlərinin yaradılması işinə layiqli töhfələr vermişdir.

Böyük siyasi xadim Fətəli xan Xoyski 1875-ci il noyabrın 25-də Şəki şəhərində anadan olmuşdur. O, 1892-ci ildə Yelizavetpol (Gəncə) klassik gimnaziyasını bitirdikdən sonra Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuş, 1897-ci ildə buranı birinci dərəcəli diplomla bitirmişdir. F.Xoyski 1897-1907-ci illərdə Yelizavetpol, Kutaisi, Yekatirinodar dairə məhkəmələrində müxtəlif vəzifələrdə çalışmışdır. Yekaterinadar dairə məhkəməsində prokuror müavini təyin edilməsi Xoyskinin ictimai-siyasi fəaliyyətində yeni mərhələ olmuşdur.

### MÜSTƏQİLLİK UĞRUNDA APARILAN HƏRƏKATIN LİDERLƏRİNDƏN BİRİ

F.Xoyski İkinci Dövlət dumasının bir qrup deputatı ilə birlikdə Müsəlman fraksiyasının üzvü idi, köçürülmə siyasətinin əleyhinə çıxış edirdi, Konstitusiyalı Demokratiya Partiyasının üzvü idi. 1917 Fevral inqilabından sonra 1-ci Qafqaz müsəlmanları qurultayının iştirakçısı idi; may ayında Moskvada keçirilən 1-ci Ümumrusiya müsəlman qurultayında Ümumrusiya müsəlman Şurasının İcraiyyə Komitəsinin üzvü oldu. Bitərəflə "Müsavat" partiyasının 1-ci qurultayında iştirak etmişdir, Azərbaycana Rusiyanın tərkibində muxtariyyət verilməsi haqqında müsavatçıların tələbini dəstəkləyirdi. Bakı şəhər Dumasına (oktyabr 1917 - aprel 1918) rəhbərlik etmişdir.

1917-ci il Fevral inqilabından və Oktyabr çevrilişindən sonra F.Xoyskinin fəaliyyətində yeni bir mərhələ başlamışdır. O, siyasi və ictimai mübarizəyə daha fəal surətdə qoşulmuş, qısa müddət ərzində Azərbaycan xalqının azadlığı və müstəqilliyi uğrunda aparılan hərəkatın liderlərindən birinə çevrilmişdir. Fətəli xan Xoyski martın 29-da Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmiş, bu təşkilatın gərgin fəaliyyəti nəticəsində həmin ilin aprelində Bakıda çağırılan Qafqaz müsəlmanlarının qurultayında iştirak etmişdir. O, 1917-ci ilin dekabrında yaranan Zaqafqaziya Seyminin üzvü və 1918-ci il aprelində müstəqil elan edilən Zaqafqaziya Federativ Respublikası hökumətinin Ədliyyə naziri olmuşdur.

### İSTİQLAL BƏYANNAMƏSİNDƏ İMZASI OLAN SİYASİ XADİM

Zaqafqaziya seymi buraxıldıqdan sonra, 1918-ci il mayın 27-də artıq keçmiş Zaqafqaziya seyminin müsəlman fraksiyası üzvləri yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün fövqəladə iclasını çağırdılar. Yığıncaq Cənubi Qafqazın şərqi ərazilərin idarə olunmasını öz üzərinə götürmək qərarına gəldi, və özlərini Zaqafqaziya müsəlmanlarının Müvəqqəti Milli şurası adlandırdılar. Milli şuranın yanında 9 nəfərdən ibarət icraçı orqan yaradıldı, onun vəzifəsi respublika həyatının müxtəlif sahələri üzrə planların həyata keçirilməsi idi. F. Xoyski icraiyyə orqanının sədri seçildi.

Ertəsi gün Milli şuranın ilk iclası keçirildi: Seymin buraxılması, Gürcüstanın müstəqilliyini elan etməsi və Azərbaycanın vəziyyəti onun gündəliyində əsas bəndi idi. Şuranın bəzi üzvləri Azərbaycanın müstəqilliyinin elan edilməsinin tərəfdarı idilər, Fətəli-xan Xoyski, öz növbəsində, yerlərdə bəzi məsələlərin aydınlaşdırılmasına qədər tamhüquqlu hökumətin yaradılması ilə kifayətlənmək və Azərbaycanın müstəqilliyini elan etmədən digər ölkələrlə danışıqlara başlamaq təklifini vermişdi. Nəticədə iki nəfər bitərəf qalmaqla 24 səslə (o cümlədən F.Xoyski) Şura Azərbaycanı dərhal müstəqil demokratik respublika elan edilməsi barədə qərar qəbul etdi. Fətəli-xan Xoyski Müvəqqəti hökumətinin tərkibini açıqladı və orada daxili işlər naziri.vəzifələrini tutdu.

### "BÖYLƏ BİR GÜNÜ DƏRK ETMƏK ÜÇÜN QEYRİ MİLLƏTLƏR ON İLLƏR İLƏ ÇALIŞMIŞLAR"

Fətəli xan Xoyski Azərbaycan Cümhuriyyətinin ilk Hökumət başçısı kimi Azərbaycan istiqlalının elanı barədə dünya dövlətlərinə ünvanlanan radioteleqramı imzalamış, 5-ci Hökumət kabinəsinin xarici işlər naziri olarkən isə istiqlalın Paris Sülh Konfransı tərəfından tanınması haqqında Parlamentdə məlumat vermişdi. Parlamentin bu məsələyə həsr olunmuş təntənəli iclasındakı (1920-ci il, 14 yanvar) çıxış ında Fətəli xan Xoyski demişdi: "...Bu xəbər bizdən ötrü böyük bayramdır. Bu yalnız bizim üçün deyil, ümumi türk milləti və ümumi türk aləmi üçün böyük bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri millətlər on illər ilə çalışmışlar. Biz isə onu az müddətdə, bir il yarım içərisində qazandıq. Böylə az miiddətdə istiqlaliyyətini alan bir millətin onu möhkəm saxlayacağına əminəm. Bugünki bayram münasibətilə sizi hökumət tərəfindən təbrik edirəm. Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm ki, istiqlaliyyətimizi elan edən zaman hökumət başında mən idim. Və indi də təsdiqini sizə mən elan edirəm ".

Fətəli xan Xoyski Nazirlər Şurasının sədri N. Yusifbəylinin təşkil etdiyi beşinci hökumət kabinəsində Xarici İşlər naziri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə və xarici dövlətlər tərəfindən tanınmasında Fətəli xan Xoyskinin əsaslı xidmətləri olmuşdur. 1920-ci il aprelin ortalarında 11-ci Qırmızı ordu Şimali Qafqazda Denikin qüvvələrini məğlub edərək; Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədlərinə yaxınlaşdı. Aprelin 15-də Xoyski Hökumət adından sovet Rusiyası hökumətinə nota göndərsə də, nota cavabsız qaldı və aprelin 27-də XI Qırmızı ordu beynəlxalq hüquq normalarını pozaraq, Azərbaycan sərhədlərini keçdi və Bakıya doğru hücum əməliyyatına başladı. Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyuldu. Aprel işğalından (1920) sonra Tiflisə mühacirət etməyə məcbur olan Fətəli xan Xoyski iyunun 19-da orada "Daşnaksutyun"un muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirildi və həmvətəni M.F.Axundzadənin yanında dəfn edilmişdir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Yol terrorunu KİM YARADIR?

MƏTLƏB
Metlebsalahov@mail.ru

**_Son bir ay ərzində yol qəzalarında ölən və yaralanan insanların sayı durmadan artır. Demək olar ki, hər gün ölkənin bütün ərazilərində yol qəzaları barədə xəbərlər mətbuatı başına götürüb gedir. Artıq tam əminliklə deyim ki, yol qəzalarında və ölüm statistikasında qardaş Türkiyəni belə geridə qoymaq üzrəyik. Əlbəttə, ilk ağıla gələn "yol qəzalarına əsas səbəb nədir" sualıdır. Səbəb çoxdur. Yol keyfiyyətinin aşağı olması, yenicə təmir olunmuş və ya çəkilmiş yolların bir müddətdən sonra bərbad və qəzalı hala düşməsi, rüşvətlə sürücülük vəsiqələri əldə edib yollarda ölüm saçan məsuliyyətsiz və qeyri-peşəkar sürücülərin hər gün artması, sürət həddinə əməl edilməməsi və sairə və sair..._**

Bu gün ölkəmizdə acı həqiqət odur ki, kimin "beşüç qəpiyi" varsa sevgilisinə, övladına, həyat yoldaşına avtomobil alıb salır Bakının yollarına. Tıxac üzündən bir-birinə sürtüşən avtomobil karvanına hər gün onlarla qeyri-peşəkar, heç bir təcrübəsi olmayan avtomobil sahibləri daxil olurlar.

Bu isə elə hər gün onlarla günahsız insanın ölümü, bir ömürlük şikəst qalması deməkdir. Dəhşətli orasıdır, əksər valideynlər övladlarına hədiyyə kimi kredit maşınlar alıb guya onlara "sürpriz hazırlayırlar". Əslində, onlar bu addımları ilə yenicə həyata qədəm qoyan, təcrübəsiz gəncləri ölümün ağuşuna atırlar. Yenə köhnə lovğalıq xəstəliyimiz öz sözünü deyir. Bizi əcələ yaxınlaşdırmaqla. Övladını sevindirmək istəyən valideynlər, gəncləri arzularına yaxınlaşdırmaq əvəzinə, bahalı maşınlar hədiyyə edib onları arzularının əvəzinə vaxtsız əcələ çatdırırlar.

Amma təkcə saxta sürücülük vəsiqələri, sürət həddinin aşılması səbəb olmur yol qəzalarına. Həm də keyfiyyətsiz şəkildə çəkilən yolların tez xarab olması, qəzalar üçün ölüm pusqusuna çevrilməsi də əsas səbəblər sırasındadır. İnsaf naminə onu da deməliyik ki, əksər istiqamətlərdə salınan yollar keyfiyyətinə görə dünya səviyyəsinə uyğunluğu ilə seçilir. Dövlət yeni yolların salınması üçün ən yüksək səviyyədə vəsait ayırır. Qalır bu ayrılan vəsaitin təyinatı və qaydalara uyğun xərclənməsi, keyfiyyətli yolların salınması. Hə, bax, bütün işlər də gəlib burada "ilişir." Çünki bir çox istiqamətlərdə tamamilə yeni salınan yollar 2-3 il keçməmiş dağılıb-tökülüb, gediş-gəliş üçün yararsız hala gəlib. Təkcə son bir ayda mətbuatda respublikanın ən müxətlif bölgələrində yenicə çəkilən yolların dağılıb bərbad günə qalması, qəza şəraiti törətdiyi barədə eninə-boyuna yazılar dərc olundu. Bakı-Quba yolunun artıq bütün istiqamətlərdə və ilin bütün fəsillərində "təmir labarotoriyasına" çevrilməsi adi hal alıb. Bəli, bir sıra hallarda yeni çəkilən yolların keyfiyyət və zəmanət problemi olduğu üçün bu yolların ömrü uzun olmur. Nəzarətsizlik, başdansovdu yanaşma üzündən dövlətin xərclədiyi pullar da havaya sovrulur, üstəlik nəqliyyat vasitələri üçün olduqca təhlükəli qəza vəziyyətləri yaranır. Bu olduqca təhlükəli məqamdır. Lakin təəssüflər olsun ki, hələ keyfiyyətsiz yol çəkilişinə görə cəzalanan cavabdeh şəxs barədə bir kəmə də eşitməmişik.

Yol mədəniyyət, sosial infrastruktur olduğu halda bir sıra cavabdeh şəxslər bu məsələyə fərdi qazanc mənbəyi kimi yanaşırlar. Dəfələrlə mətbuatda da yazılıb ki, yol çəkilişləri zamanı standartlara uyğun iş görülmür, materiallar tələb olunduğundan qat-qat az istifadə olunur, bir sözlə, keyfiyyətsizlik sindromu yaradılır. Təkcə bir faktı qeyd edək ki, 2006-cı ildən bəri bu istiqamətə on milyardlarla manat sərf olunub. Deməli, yol infrastrukturu baxımından başdansovdu, məsuliyyətsiz işlərə "tövbə" demək lazımdır. Ən sonda bir məsələni də deyim. Neçə illərdir ki, Bakıda məşhur bir deyim var: dağılmış, hasara alınan asfalt parçaları "çörək ağacıdır", "silinən pullardır". Lakin keyfiyyətsizlik, başdansovdu çəkiliş üzündən dağılan yollar həm də hər gün onlarla insanın yol qəzalarında həyatla vidalaşması, bir ömürlük ağır xəsarətlərlə şikəst qalması deməkdir...

# Verter effekti nədir?

**“Verter effekti” mediada intihar hadisələrinin geniş və romantik şəkildə işıqlandırılmasının ardından, oxşar intiharların artması fenomenini izah edən psixoloji və sosioloji termindir. Bu termin sosial yoluxma və modelləşdirmə nəzəriyyələrinə əsaslanır.**

## Bəs, bu effekt ilk dəfə necə kəşf edilib?

Effekt ilk dəfə 1974-cü ildə amerikalı sosioloq David Phillips tərəfindən elmi şəkildə izah edilib.

Bu termin alman yazıçısı Yohann Volfqanq Götenin 1774-cü ildə yazdığı ”Gənc Verterin iztirabları” romanından götürülüb.

Romanda Verter adlı gənc, qarşılıqsız sevgiyə dözməyib intihar edir. Kitab yayımlandıqdan sonra Avropada bir çox gəncin eynilə Verter kimi geyinib, eyni səbəblərlə intihar etdiyi halların artdığı müşahidə olunub. Bu hadisələrə görə, bir çox ölkədə romanın yayımlanması qadağan edilmişdi.

Məsələ ilə bağlı psixoloq Vüsalə Əmiraslanova SİA-ya açıqlamasında bildirib ki, Verter effekti kütlə psixologiyasına təsir edən bir effektdir:

”İnsanlar həmin əsəri oxuduqdan sonra düşünmədən, kor-koranə şəkildə intihar etməyə başlayırdılar. Bundan əlavə, elə musiqi, filmlər var ki, verter effekti kimi təsir göstərir. Yəni insan həmin əsəri oxuduqda və ya həmin musiqini dinlədikdə özünü tamamilə unudur, intihara meyl edir. Əlbəttə ki, verter effektinin insan psixologiyasına mənfi təsirləri çoxdur. Çünki biz düşünmürük, hiss etmirik, sadəcə orda olanı təkrarlamağa çalışırıq. Bu da bir seçim deyil, insanın kor-koranə verdiyi bir qərardır”.








## Sosial psixologiyada Verter effekti

Bir şəxs haqqında yayımlanan intihar xəbəri (xüsusilə də məşhur şəxsdirsə və ya hadisə romantikləşdirilərsə), bəzi həssas insanlarda eyni davranışı təkrarlama istəyi yarada bilər. Bu xüsusilə aşağıdakılar üçün keçərlidir:

### Emosional cəhətdən qeyri-sabit olanlar



*Depressiyada olanlar*

**Özünü sosial təcridə uğramış hiss edənlər**

Gənclər və yeniyetmələr.

Bəs, həqiqətən də dünyada bu cür ardarda intihar hadisələri baş verib?

Araşdırmalara görə, Robin Uilyamsın intiharından sonra ABŞ və bəzi ölkələrdə intihar nisbətində artım olmuşdu.

Cənubi Koreyada K-pop ulduzlarının intiharı media vasitəsilə geniş yayımlandıqdan sonra oxşar hallar artmışdı.

## Bəs, bu effekt insana necə təsir edir?

Sosial öyrənmə - insanlar davranışı başqalarını müşahidə edərək öyrənirlər.

Model rolunda görmək - tanınmış, sevilən və ya empatı hiss olunan şəxs intihar edirsə, bəzi insanlar onu model kimi qəbul edə bilər.

Romantizasiya və qaçış düşüncəsi - intihar bəzən ”qaçış” və ya ”azadlıq” kimi təqdim olunduqda daha cəlbedici görünə bilər.

Normalizasiya - intihar hallarının çox və təkrarlanan şəkildə verilməsi onu ”normal” və ”yayğın” davranış kimi göstərə bilər.

## Bəs, qarşısı necə alınmalıdır?

Bununla bağlı Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və bir çox ölkə aşağıdakı prinsipləri tövsiyə edir:

**1.** Mediada sensasiyalı başlıqlardan çəkinmək
**2.** İntihar üsulunu detallı göstərməmək
**3.** Alternativ həll yollarından bəhs etmək (psixoloji yardım, dəstək)
**4.** Zərərçəkənə simpatiya ilə deyil, neytral yanaşmaq
**5.** Yardım xətləri və dəstək məlumatlarını paylaşmaq

## Əks effekt - Papageno effekti

Bu, Verter effektinin əksi olan bir fenomendir. Yəni intihardan çəkinən və psixoloji problemlərlə mübarizə aparan insanların hekayələri yayıldıqda, intihar halları azalır.

## Bəs, bu effektin tarixçəsi nədir?

Bu effekt adını Mozartın ”Sehrli Fleyta” operasındakı Papageno obrazından alır.

Papageno intihar etmək istəyəndə, ona həyatın dəyərini xatırladan biri olur və o fikrindən daşınır.

Nəticə etibarilə, Verter və Papageno effektləri, intiharın mediada necə işıqlandırıldığının cəmiyyətə və fərdlərə necə təsir etdiyini göstərən mühüm sosial-psixoloji anlayışlardır. Bu mövzuya həssas və məsuliyyətli yanaşma, xüsusilə media nümayəndələri, müəllimlər, psixoloqlar və siyasətçilər üçün həyati əhəmiyyət daşıyır. Hər bir fərd üçün doğru informasiya və dəstək vacibdir - həyat seçimlərini dəyişmək və yaşamaq üçün ümid həmişə var.

***Arzu Qurbanlı***

# Azərbaycan Türkiyə qardaşlığı: dünya miqyasında nümunəvi birlik!

Hər bir sahədə inkişaf edən Azərbaycan-Türkiyə dostluğu və strateji tərəfdaşlığı dünya üçün nadir bir nümunəyə çevrilib. Bu gün Azərbaycanla Türkiyə arasında münasibətlər ən yüksək zirvədədir. İki qardaş ölkənin əlaqələri daim yüksələn xətlə inkişaf edir. Sarsılmaz birliyə əsaslanan dostluq və əməkdaşlıq prinsipləri möhkəm təməllərə söykənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 15-də Şuşada Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Selçuk Bayraktaroğlunu qəbul etməsi iki ölkə arasında sarsılmaz birliyin daha bir nümunəsidir. Bunun Şuşa şəhərində gerçəkləşməsi əlamətdardır. Görüşdə ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyi vurğulanıb. Sarsılmaz dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan əlaqələri uğurla davam edir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq mövcud münasibətlər keyfiyyətcə yeni müstəviyə keçib. Azərbaycan və Türkiyə qədər birbirinə yaxın ölkələrin olmadığını deyən dövlətimizin başçısı qeyd edib ki, birliyimiz dünya miqyasında önəmli amildir. Prezident İlham Əliyev bölgədə artıq sülh dövrünün başladığını vurğulayıb.





Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır. Bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək, ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasına səbəb olub.

## MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİ HAQQINDA BƏYANNAMƏ

Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərini daha da möhkəmləndirməsi dövlətimizin xarici siyasətinin mühüm istiqamətidir. 2010-cu il avqustun 16-da "Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"nin, eləcə də "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə" nin imzalanması mühüm əhəmiyyət kəsb edir. Heç şübhəsiz, Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında sənədin imzalanması çox düzgün və gələcəyə hesablanmış bir addım oldu. Tarix boyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub və iki ölkə həmişə bir-birinin sevincli, kədərli günlərində biri digərinin yanında olub. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Azərbaycan və Türkiyə arasındakı əsl dostluq və qardaşlıq münasibətlərinin mahiyyəti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün zamanında söylədiyi "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarında dəqiq ifadə olunub.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin 2021-ci ildə məhz Şuşa şəhərində imzalanmasının önəminə toxunulub. Əlbəttə ki, Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması Azərbaycan-Türkiyə münasibətlərində yeni bir dövrün başlanğıcını qoymuş oldu. Qardaş dövlətlərin Şuşa Bəyannaməsini imzalamaları müttəfiqlik münasibətlərinin göstəricisidir. Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq, Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bəyannamədə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi kimi məsələlər öz əksini tapıb. Tarixi, strateji önəmi, hüquqi, hərbi və siyasi baxımdan xüsusilə böyük əhəmiyyətə malik olan Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını bir daha nümayiş etdirir. Azərbaycan və Türkiyə regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini davam etdirilməsi baxımından yeni imkanlar açır. Şuşa Bəyannaməsi iki ölkə arasında imzalanmış olsa da, bölgə üçün də böyük əhəmiyyət daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə dövlətlərarası gələcək iş birliyinin istiqamətini göstərir.



## STRATEJİ MÜTTƏFİQLİYƏ ƏSASLANAN ƏMƏKDAŞLIQ

Bugünkü görüşün 15 sentyabr - Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnak-bolşevik işğalından azad olunmasının 107-ci ildönümünə təsadüf etməsi məmnunluqla vurğulanıb. Söhbət zamanı Azərbaycanın və Türkiyənin hərbi qurumları arasında qardaşlığa, strateji müttəfiqliyə əsaslanan əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycan və Türkiyənin təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli layihələrin reallaşması həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına təsirini göstərir.

Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri hazırda Cənab Prezidentimiz İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri altında ən yüksək səviyyədə davam etməkdədir. Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi illər ərzində həmişə Azərbaycana dəstək verirdi. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Türkiyə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Ümumilikdə tarixi Zəfərimiz bu qardaşlığın dünyaya təqdimatında öz sözünü dedi.

## İKİTƏRƏFLİ VƏ REGİONAL ƏMƏKDAŞLIQ

Ölkəmizin regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, iki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr reallaşıb. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və s. layihələr bu baxımdan təqdirəlayiqdir. İki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə TANAP Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rola malikdir. Hər iki dövlət özünün iqtisadi və enerji imkanlarından, eləcə də geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi istiqamətində səmərəli surətdə istifadə edir. Bu gün bölgənin uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsində aparıcı rol oynayan və iki ölkə arasındakı münasibətlərin çox vacib elementlərindən olan neft və qaz kəmərləri təkcə regionda deyil, eləcə də bütün dünyada dövlətlərimizin nüfuzunu əhəmiyyətli dərəcədə artırıb.

Bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyi üçün böyük təminat verməklə yanaşı, eyni zamanda ən çətin anlarda iki qardaş dövlətin birliyi və strateji tərəfdaşlığı regional təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə yüksəldilib. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan müstəqil siyasət yürüdə bilən ölkədir. Dövlət siyasətinin də mütləq prioritetləri Azərbaycan xalqının və dövlətinin milli maraqlarının müdafiə olunması, eyni zamanda ölkəmizin müstəqil siyasət aparmasıdır.

Əlbəttə ki, Azərbaycan ilə Türkiyə arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan:

## çoxsaylı terrora məruz qalan ölkəmiz

***Azərbaycan təhlükəsizlik adası olsa da, lakin zaman-zaman ölkəmizə ona qarşı saysız terror hadisələrinin şahidi olmuşuq. Belə bir sual yaranır: biz etməmişik, bəs bizə qarşı nə üçün edilib? Əlbəttə ki, dünyanın ədalətsizliyi səbəbindən. Görünür, özlərini demokratik ölkə hesab edənlərin hər biri əslində bunu haqq etmir.***

1989-1990-cı illərdən bəri Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddiaları başlanandan xalqımız bir-birinin ardınca onlarla terror hadisəsi ilə qarşılaşıb. Bunlar Ermənistanın, eləcə də Ermənistanın havadarlarının Azərbaycana qarşı törətdiyi amansız terrorlardır. Bu terrorlar miqyasına və törədilməsinə görə soyqırımından, faciədən, qırğın-qiyamətdən, didərginlikdən, təxribatdan, hiyləgərlikdən qat-qat yuxarıda dayanır.

2020-ci ilin sentyabr ayınadək ötən 30 illik zaman kəsiyində olmazın terrorları ilə üz-üzə gəldik. 20 Yanvar 1990-cı ildə Bakıda törədilən qətliamı deyək, 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecədəki Xocalı faciəsini deyək, 1989-1990-cı illərdən başlayaraq ermənilərin sərhədlərimizə basqınlarını, yüzlərlə övladımızın vəhşicəsinə qətlə yetirilməsini deyək, Birinci Qarabağ müharibəsindəki insanlığa qarşı dəhşətli hadisələri deyək, soydaşlarımızın zorla ata-baba yurdlarından qovulmasını deyək, 20 faizdən artıq torpaqlarımızın işğalını, bu torpaqların yeraltı və yerüstü sərvətlərinin talanmasını deyək, ermənilərin əli ilə xarici ölkələrdə yaşayan soydaşlarımın qətlə yetirilməsini deyək, bəzi ölkələrdəki səfirliklərimizə hücum aksiyalarını təşkil etdiklərini deyək, 44 günlük Vətən müharibəsindən sonra minlərlə soydaşımızın mina qurbanı olmasını deyək, yenə də torpaqlarımızda erməni qruplaşmalarının ekologiyamıza vurduğu ziyanı deyək ki, erməni xislətini açıq ortaya qoya bilsin.





### Səfirliklərimizdə terror

2020-ci ilin Tovuz hadisələrindən dərhal sonra səfirliklərimizə basqınları, diplomatlarımıza qarşı təcavüzləri yaxşı xatırlayırıq. 12-14 sentyabr hadisələrindən sonra belə hal London, Livan, Fransa və digər ölkələrdə təkrarlanıb. Bu ölkələrdə yaşayan ermənilərin müxtəlif qruplaşmalar, bəzən isə açıq şəkildə səfirliklərimizə hücumu və həmin dövlətlərin buna göz yumması erməni sevdalılarının onları müdafiə etmək istəyindən başqa bir şey deyil. Erməni sevdalıları deyirik. Əslində isə bu, bir sevda deyil. Həmin dövlətlərin erməniləri çox yaxşı tanımasından irəli gələn haldır. O mənada ki, həmin dövlətlər erməni kimi xislətsiz qəbiləni əldə saxlayıb ondan bəzi məqamlarda istifadə etməyi zamanın sınağından çıxarmış, bu səbəbdən də ermənini əldə saxlamağın onlara etdiyi sərfi digər bir xalqın dövlət qurumuna hücumdan üstün hesab edirlər. Haqqın, ədalətin kimin tərəfində olduğunu çox yaxşı bilən, lakin 30 ildəki kimi yenə də qulaqlarını pambıqlayan, gözlərini yumanlar onu da yaxşı bilməlidirlər ki, bütün dünyaya kim olduqlarını sübut edirlər. Sübut edilər ki, ötən 30 ildə Azərbaycanın bütün beynəlxalq təşkilatlar qarşısında Qarabağla bağlı qaldırdığı tələbə niyə susurduq. Sübut edirlər ki, 30 ildə Qarabağ mövzusu ortaya gələndə niyə özümüzü karlığa vururduq. Lakin unudulmayacaq bir məsələ də var ki, səfirliklər, onların yerləşməsi, təhlükəsizliyi haqqında bütün dövlətlər üçün qanunauyğunluqlar mövcuddur. Və bu qanunları pozmağa, təxribata yol verməyə heç kimin haqqı və hüququ yoxdur. Bunun üçün hər hansı münaqişənin törədilməsinə yol verən dövlət beynəlxalq hüquq qarşısında cavab verməlidir.

Bütün bu hadisələrin fonunda demək olar ki, 2023-cü ildə Tehranda Azərbaycan səfirliyində törədilən terror aktında da ermənilərin əli olmaya bilməz. Həmişə qızışdırıcı mövqedə olan, yalan xislətli, fırıldaqçı ermənidən bundan fərqli nə gözləmək olar ki?.. Bəs nə qədər terror?..

### Mina terroru




Dünya susur, susduqca da ermənilər əlqol açır, onları azərbaycanlılara qarşı yeni terror hadisələri törətməyə şövqləndirir.

Artıq neçə ildir, düşmənin minalanmış ərazilərin xəritəsini verməli olduğu halda verməməsinə də susurlar. Bu isə müharibədən ötən dövr ərzində dəfələrlə insanların minaya düşərək həyatlarını itirməsinə səbəb olub.

Soydaşlarımızın dəfələrlə minaya düşərək həyatlarını itirməsi və ya ağır bədən xəsarəti alması Ermənistanın minalanmış ərazilərin xəritəsini təcili şəkildə təhvil verməli olduğunun daha bir nümunəsidir. Lakin onlar bunu etmir, dünya da bu qədər insan ölümünə susur, susur...

2021-ci ilin iyun ayının 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində azərbaycanlı jurnalistlərin ölüm xəbərindən təəssüfləndiyini bildirən ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza demişdi: "Azərbaycan hökuməti minaları zərərsizləşdirmək üçün mümkün olan hər şeyi edir. Amma Ermənistanın bu xəritələri təhvil verməsi beynəlxalq humanitar hüququn tələbidir. Buna heç bir bəraət qazandırmaq olmaz. Bu, beynəlxalq humanitar hüququn pozulması deməkdir. Ümid edirəm ki, ATƏT-in Minsk qrupu və həmsədrlər, eləcə də Avropa İttifaqı Ermənistanı həmin xəritələri təhvil verməyə çağıracaq".

Həmin çağırışdan iç ilə yaxın vaxt keçsə də, lakin hələ də Minsk qrupu, Avropa İttifaqı bu insan itkilərinə reaksiyasız şəkildə öz fəaliyyətlərini davam etdirir. Elə bu səbəbdən də artıq Azərbaycan işğala son qoyub, Azərbaycan öz ərazi bütövlüyünü hərbi və siyasi yolla təmin edib. Belə olduğu halda artıq Minsk qrupuna ehtiyac yoxdur, biz Minsk qrupu ilə vidalaşmışıq, onlarla sağollaşmışıq, deyən dövlətimizin başçısı fikrini belə tamamlamışdır: "Lakin təəssüflər olsun ki, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər. Bildirmək istəyirəm ki, bu, qeyri-mümkündür. Artıq o qrup ölüdür, cansızdır. Biz işğaldan xeyli əziyyət çəkmişik və bunu açıq-aydın şəkildə bildiririk. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda dağıdıcıdır, regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".

Cenevrə Konvensiyasına və beynəlxalq protokollara görə tərəflər minalanmış ərazilərin xəritələrini müharibə başa çatdıqdan sonra bir-birinə təqdim etməlidirlər. Ermənistan isə beynəlxalq sənədlərə, dövlətinin rəsmisinin imzaladığı kapitulyasiya aktına zidd olaraq xəritələri hələ də Azərbaycana təqdim etmək fikrində deyil. Hələ üstəlik həyasızcasına bu xəritələrin, ümumiyyətlə, olmadığını da iddia edirlər. Lakin bu, onların növbəti yalanı, məğlubiyyətlərinin acısından gizlətdikləri, əslində isə var olan xəritələrdir.

Birinci Vətən müharibəsindən sonra 2000 nəfərdən çox soydaşımız mina qurbanı olmuşdur. Bu gün azad etdiyimiz torpaqlarımızın isə təqribən 13 kvadratkilometri minalarla əhatə olunmuşdur. Bu ərazilərdə dəfələrlə bədbəxt hadisələrin baş verməsi minalanmış ərazilərin xəritəsinin olmaması səbəbindəndir. Odur ki, mina qurbanı olan soydaşlarımızın sayı 3000-ə yaxınlaşır. Bu terrora nə vaxt son qoyulacaq?

### Ekoloji terror

1988-1990-cı illərdə ermənilər tərəfindən sərvətlərimizin talan edilməsi, ekologiyamıza vurulan milyonlarla manat dəyərində ziyan Birinci Vətən müharibəsinə aparan yolun başlanğıcı oldu.

Qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edən meşədə palıd, fıstıq, qarağac kimi ağaclar vardı. Topxana əsl təbiət möcüzəsi idi, meşənin heyvanat aləmi ayı, canavar, tülkü, dovşan, cüyür və digər heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan ibarət idi. Topxana meşəsində subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar vardı.

Həmin dövrdə eşitdik ki, işğalçı ermənilər sərvətlərimizi talan edir, meşələrimizi qırıb daşıyırlar. Təxmini məlumatlara görə, Topxanadan 2000-dən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşınıb. Şuşanın Cıdır düzündə, "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə edilib.

30 il sonra torpaqlarımız işğaldan azad ediləndən, düşmənə 2020-ci ilin 44 günlük payızında həddi göstəriləndən sonra yenə də terror hadisələrindən yaxa qurtara bilmədik. Bununla bağlı olaraq 2022-ci ilin sonlarında Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekoloqların, fəalların, könüllülərin iştirakı ilə Laçın-Şuşa yolunda 138 gün davam edən etiraz aksiyası keçirildi.

### İnsan terroru

Hələ 1905-1907, 1918, 1948-1954 və 1988-ci illərdə ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımı vəhşiliyindən danışmıram. 1990-cı ildən bu yana olan insan terrorundan söhbət açmaq istəyirəm.

Birinci Qarabağ Müharibəsində sərhədlərimizdə və müharibə bölgəsindən uzaq ərazilərdə insanların qətlə yetirilməsindən, ermənilərin insan terroru həyata keçirməsindən danışmaq istəyirəm. 20 Yanvar-bəli, məlumdur kimlər tərəfindən törədildi. Lakin bu hadisədə erməni barmağının olmadığını kim deyə bilər?

Xocalı faciəsindən söhbət açaq. Bütün bəşəriyyətə və insanlığa qarşı ağır terror hadisəsi olan bu faciə nə üçün törədilməli idi? Nə üçün bütün dünya bu qədər ağır hadisəyə göz yumdu, qulaqlarını tıxadı? Bax elə bu səbəbdən ondan sonra da terror hadisələri yaşanacaqdı. Çünki o, cavabsız, cəzasız qalmışdı. Deməli, davam etdiriləcəkdi.

İkinci Qarabağ müharibəsində 44 gündə ermənilərin dinc əhalinin yaşadığı əraziləri nəhəng artilleriyalardan atəşə tutmasına, evləri-həyətləri dağıtmasına, insanların ömrünü sonlandırmasına, Gəncəyə atdıqları raketlə neçə-neçə uşağın ölməsinə, valideynlərini itirməsinə, dağıntılara səbəb olmasına da dünya susdu. Etirazını bildirmədi. Dünya susduqca, terrorlar artır. Xüsusilə erməni terroru və ermənilərin barmağı olan terrorlar. Axı nə qədər terror? Nə vaxta, nə zamanadək? Bəsdir ta. Bu terrorları törədənlərə ar olsun!

### Terrorizmə görə...

Ərazisində terrorçuluq fəaliyyəti və terror təhlükəsi ən yüksək olan ölkələr arasında ilk sıralara Burkina Faso (8.571), İsrail (8.143), Mali (7.998), Pakistan (7.916), Suriya (7.89), Əfqanıstan (7.825) daxil edilib. Qeyd olunan sıralamada İran (4.464) 26-cı, Türkiyə (4.168) 29-cu, ABŞ (4.141) 30-cu, Rusiya (3.016) 35-ci, Fransa (2.647) 38-ci, Norveç (1.747) 53-cü, Ermənistan (0.423) 76-cı, Birləşmiş Ərəb Əmirlikləri (0.233) 79-cu, Litva (0.059) 87-ci yerdə qərarlaşıb.

Azərbaycan həssas və mürəkkəb geosiyasi məkanda olsa da, ötən illərin uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş sürətli inkişaf, sabitlik və əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər nəticəsində dünyada ən yüksək daxili təhlükəsizlik reytinqinə yüksəlib. Ölkəmiz terror təhlükəsi üzrə qeyd olunan sıralamada "0" indekslə sonuncu - 89-cu yerdə Danimarka, Finlandiya, Qətər kimi ölkələrlə birgə qərarlaşmaqla, dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi ən yüksək reytinqə sahiblənib. Ölkəmizlə qürur duyuruq.

***Mətanət Məmmədova***

# “Azərbaycan-BƏƏ əlaqələri Yaxın Şərq üçün də strateji əhəmiyyət kəsb edir”

“Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında münasibətlər son illərdə dinamik inkişaf xətti üzrə genişləndirilməkdədir”. Bu fikirləri millət vəkili Musa Quliyev SİA-ya açıqlamasında bildirib. O, qeyd edib ki, iqtisadi, siyasi, diplomatik, mədəni və humanitar sahələrdə əməkdaşlıq hər iki ölkənin ortaq maraqlarına xidmət edir və strateji tərəfdaşlığın möhkəmləndirilməsinə şərait yaradır: ”BƏƏ Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən olmuşdur. 1991-ci ilin dekabrında Azərbaycanın müstəqilliyini rəsmi olaraq tanıyan bu ölkə, o vaxtdan etibarən Azərbaycan ilə münasibətlərini dostluq və qarşılıqlı hörmət prinsipləri əsasında qurmuşdur. Qarabağ torpaqları işğal altında olduğu dövrdə





BƏƏ bütün beynəlxalq platformalarda Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və ölkəmizin ərazi bütövlüyünü tanıdığını daim bəyan etmişdir.

Son dövrdə, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri fonunda Azərbaycan-BƏƏ əlaqələri yeni mərhələyə qədəm qoymuşdur. Prezident İlham Əliyevin təşəbbüsü və həyata keçirilən yüksək səviyyəli səfərlər nəticəsində münasibətlər daha da intensivləşmişdir. 2024-2025-ci illərdə dövlət başçıları üç dəfə görüş keçirmiş, iki dəfə Azərbaycan Prezidenti BƏƏ-yə səfər etmiş, həmçinin BƏƏ Prezidenti Azərbaycana rəsmi səfər etmişdir. Qarabağda keçirilən yüksəksəviyyəli qarşılanma mərasimi və imzalanan 13 sənəd, o cümlədən strateji əməkdaşlıq haqqında bəyannamə bu münasibətlərin dərinliyini sübut edir.

Əməkdaşlığın iqtisadi aspektləri xüsusilə diqqətəlayiqdir. BƏƏ-nin ”Masdar” şirkəti tərəfindən Qaradağ rayonunda 230 MVT gücündə bərpa olunan enerji layihəsi uğurla həyata keçirilmiş və hazırda elektrik stansiyası fəaliyyət göstərməkdədir. Bu fakt Azərbaycanın yaşıl enerji strategiyasının reallaşdırılmasına əhəmiyyətli töhfə olmaqla yanaşı, iki ölkə arasında investisiya əməkdaşlığının səmərəliliyini nümayiş etdirir.

BƏƏ Yaxın Şərqin və bütövlükdə Avrasiya məkanının iqtisadi potensialı və ən güclü dövlətlərdən biri kimi tanınır. Belə bir ölkə ilə strateji tərəfdaşlıq Azərbaycanın regional mövqeyini gücləndirməklə yanaşı, iqtisadi və siyasi imkanlarını da artırır. Həmçinin, hər iki ölkənin islam dünyasına mənsub olması, birgə mədəni və dini platformalarda eyni mövqedən çıxış etməsi əlaqələrin dərinləşməsinə əlavə stimul verir. Nəticə etibarilə, Azərbaycanla BƏƏ arasındakı əlaqələr həm siyasi-diplomatik, həm də iqtisadi-mədəni müstəvilərdə yüksələn xəttlə inkişaf edir. Bu əməkdaşlıq regionda sabitlik və qarşılıqlı faydanın təmin olunmasına xidmət etməklə yanaşı, hər iki ölkənin beynəlxalq nüfuzunu da gücləndirir.

Azərbaycanın turizm potensialı olduqca genişdir. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə yeni turizm obyektlərinin tikintisi həm yerli, həm də xarici turistlər üçün cəlbedici imkanlar açır. Bu baxımdan, Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) gələn turistlərin sayında yaxın illərdə nəzərəçarpacaq artım gözlənilir. İqtisadi əməkdaşlığın digər istiqamətlərindən biri də ”Azərbaycan brendi”nin təşviqi və yerli məhsulların ixracıdır. Xüsusilə kənd təsərrüfatı və emal sənayesi məhsullarının BƏƏ bazarına çıxarılması üçün böyük potensial mövcuddur. Bu, həm ölkə iqtisadiyyatının şaxələndirilməsinə, həm də ixrac imkanlarının genişlənməsinə töhfə verir. Bundan əlavə, sənaye, ticarət və iqtisadiyyatın digər sahələrində də Azərbaycan ilə BƏƏ arasında əməkdaşlığın dərinləşəcəyi proqnozlaşdırılır. İkitərəfli münasibətlərin bu şəkildə inkişafı Azərbaycanın regional və beynəlxalq mövqelərini gücləndirməklə yanaşı, ölkəmizin siyasi-iqtisadi nüfuzunun artmasına da xidmət edir.

Nəticə etibarilə, Azərbaycan-BƏƏ münasibətlərinin hazırkı inkişaf tendensiyaları göstərir ki, bu əməkdaşlıq təkcə iki ölkə üçün deyil, bütövlükdə region və Yaxın Şərq üçün də strateji əhəmiyyət kəsb edir. Əlaqələrin güclənməsi Azərbaycanın həm iqtisadi, həm də siyasi baxımdan aparıcı dövlətə çevrilməsini sürətləndirən mühüm amillərdən biridir”.

*Səbinə Hüseynli*

# Modiyə müxalifətin istefa tələbi

***Narendra Modi 75 yaşını xeyriyyə işləri ilə qeyd edir. O, adekvat tibbi yardım almaq çətin olan ərazilərdə uşaqlara və qadınlara tibbi yardım göstərən düşərgəyə baş çəkib. Belə düşərgələr 16 gün ərzində ölkə üzrə açılacaq. Təbii ki, Rusiya İnqilabının lideri Vladimir Lenin xalqa yaxınlığını nümayiş etdirmək üçün təmizlik günü daşımalı idi. Hindistanda isə siyasətçilərdən bu cür səylər tələb olunmur. Amma başqa bir problem var.***



Müxalifətçilər yazır ki, Modinin özü bir vaxtlar partiya yoldaşı və rəqibi Lal Advanini 75 yaşı tamam olanda təqaüdə çıxarıb. Ona görə də tənqidçilər soruşurlar: Sizin də getməyin vaxtı çatmayıbmı? Baş nazir bu hücumlara cavab olaraq hakimiyyətdə qalmaq üçün heç vaxt yaş məhdudiyyəti qoymadığına işarə edib. Lakin dünyanın ən çox əhalisi olan ölkəsinin lideri yubileyində beynəlxalq siyasətə diqqət yetirməyə bilməzdi. O, Rusiya Prezidenti Vladimir Putinin təbrikini qəbul edib və mesajında Modinin Hindistan və Rusiya arasında dostluq əlaqələrinin möhkəmlənməsinə mühüm şəxsi töhfə verdiyini qeyd edib. Putin qeyd edib ki, Modinin rəhbərliyi altında Hindistan sosial, iqtisadi, elmi və texniki sahələrdə böyük uğurlar qazanıb.

Bir çox liderin təbrik xoruna ABŞ prezidenti Donald Tramp da qoşulub. O qeyd edib ki, bir gün əvvəl Hindistanın baş naziri ilə gözəl telefon danışığı olub. Və özünün TruthSocial sosial media hesabında ABŞ prezidenti Modinin heyrətamiz bir iş gördüyünü yazdı. Lakin mesajda Tramp Modiyə Rusiya və Ukrayna arasında münaqişənin sona çatmasında göstərdiyi köməyə görə təşəkkür edib. Lakin ABŞ-Hindistan münasibətlərini çətinləşdirən məhz bu məsələ idi. Tramp Hindistandan Rusiya enerji məhsullarını almağı dayandırmağı tələb edib, çünki bu, Moskvaya müdafiə sənayesini gücləndirməyə kömək edir.

Modi Trampa cavabında bu tənqidə məhəl qoymayıb. O, sosial media üzərindən verdiyi yazılı açıqlamada Hindistanın ABŞ ilə strateji tərəfdaşlığını gücləndirməyə ”tam sadiq olduğunu” və bu tərəfdaşlığı yeni zirvələrə çatdırmaq istədiyini vurğulayıb. Hindistan da ABŞ-ın Ukrayna böhranına son qoymaq səylərini dəstəkləyir. Bir sözlə, ad günü oğlanı üçün təriflər əskik olmayıb. Modi həmçinin digər ölkələrin liderlərinə təbriklərinə görə əsasən əsassız təşəkkür mesajları ünvanlayıb.

Modi 11 ildir hakimiyyətdədir. O, özünü bacarıqlı siyasətçi kimi sübut etdi, onun hərəkətləri Hindistanın beynəlxalq aləmdə nüfuzunu yüksəltdi və dünyanın aparıcı iqtisadiyyatları ilə qarşılıqlı faydalı əlaqələr yaratmağa kömək etdi. ABŞ-a gəldikdə, Modinin çox güclü mövqeyi var idi. Birincisi, Amerika böyük və nüfuzlu hind diasporasına ev sahibliyi edir. Hindistan əsilli amerikalılar həm biznesdə, həm də hökumətdə mühüm vəzifələr tuturlar. Qeyd edək ki, ABŞ-ın keçmiş vitse-prezidenti Kamala Harrisin də Hindistanda doğulmuş əcdadları var.

İkincisi, Vaşinqton son iyirmi ildə Hindistanla xüsusilə sıx əlaqələr quraraq, Üçüncü Hind-Pakistan Müharibəsi zamanı İslamabadın tərəfində olmağın uzun müddətdir davam edən günahını yumağa çalışır.

Həm Demokrat, həm də Respublikaçı administrasiyalar bu xətti izlədilər. ABŞ Hindistanı müasir silah və texnologiya ilə təchiz etməyə başlayıb. Hindistan və ABŞ bölmələri arasında birgə hərbi təlimlər müntəzəm xarakter alıb. Quruda bunlar adətən Hindistanın şimalında, Himalay dağlarının yaxınlığında baş verir, burada Dehlinin Çinlə uzun müddətdir davam edən sərhəd mübahisəsi var. Dənizdə Hindistan Hərbi Dəniz Qüvvələri ABŞ və onun müttəfiqləri olan Avstraliya və Yaponiya gəmiləri ilə birgə manevrlər həyata keçirir.

Vaşinqton ABŞ, Hindistan, Yaponiya və Avstraliyanın daxil olduğu QUAD ittifaqını yaratmaqla Dehlinin xarici siyasətində qərbyönlü qərəzliyi gücləndirməyə müvəffəq oldu. Bu, hərbi blok deyil, Hindistan və ABŞ və onların hərbi müttəfiqləri arasında genişlənmiş qarşılıqlı əlaqəni asanlaşdıran dialoq platformasıdır.

Lakin ABŞ-ın saxtalaşdırdığı mürəkkəb strukturlar ötən ilin yazında çatlamağa başlayıb. Tramp Rusiyadan neft alan Hindistana 50 faiz rüsum tətbiq edib. Bundan əlavə, Ağ Evin hazırkı başçısı Pakistan ordusunun Ali Baş Komandanına rəğbət bəsləyərək, onun Trampın may ayında Hindistan və Pakistan arasında atəşkəs razılaşmasına vasitəçilik etdiyini iddia edib. Dehli Trampın açıqlamasını Hindistana hörmətsizlik əlaməti kimi qəbul edib və Vaşinqtona cavab verib ki, əslində heç bir vasitəçilik olmayıb. Atəşkəslə bağlı birbaşa iki ölkənin ordu komandirləri tərəfindən danışıqlar aparılıb.

Görünürdü ki, Dehli müəyyən dərəcədə ABŞ-nin verdiyi dəstəyi itirir. Bu vəziyyətdə Modi özünü bacarıqlı diplomat kimi sübut edib. O, Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammitində iştirak etmək üçün Çinin Tianjin şəhərinə gedib və Putin və Çin sədri Si Tsinpinlə görüşüb. Amma sonra ofislərinin sakitliyindən çıxan üç lider əl-ələ tutaraq mediaya həmin anı çəkməyə icazə verib. Modinin nöqteyi-nəzərindən bu, Trampa bir mesaj idi: siz həddən artıq yük götürürsünüz, Hindistanın ABŞ-dan başqa tərəfdaşları var.

Lakin sonra Modi sentyabrın 3-də hərbi paradın planlaşdırıldığı və Cinpinin onu dəvət etdiyi Tianjin şəhərindən Pekinə səyahət edibetməmək dilemması ilə üzləşib. Hindistanın baş naziri yoxluğunu nümayiş etdirmək qərarına gəlib və evə qayıdıb. Onun seçiciləri Himalay dağlarında Hind-Çin sərhədində Çin silahlarının istifadə edilməsini görməkdən məmnun qalmazdılar. Axı Modi və onun Bharatiya Janata Partiyasının növbəti seçkilərdən sonra hakimiyyətdə qalıb-qalmayacağını seçicilər müəyyənləşdirməlidir.

**V.VƏLİYEV**

# Neokolonializm və irqçilik meyillərinin artması Avropanı çökdürəcək



Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində, eləcə də əksər ölkələrin konstitusiyasında irqçilik, ksenofobiya və islamofobiya yolverilməz hesaba olunur və bunu edənlər qınanılır, cinayət məsuliyyətinə cəlb olunurlar. Hətta BMT Baş Assambleyası 15 mart tarixini İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü elan edib. Hər il 15 mart tarixində BMT-də, AŞPA-da və digər beynəlxalq təşkilatlarda və ölkələrdə İslamofobiya ilə mübarizə mövzusunda tədbirlər, konfranslar keçirilir. Təəssüf ki, elə dövlətlər var ki, onlar sözdə bir, əməl də başqa mövqe sərgiləyirlər. Misal üçün Avropanı, xüsusilə də Fransanı göstərmək olar. Fransada müsəlmanlara qarşı zorakılıq adi hala çevrilib. Bu ölkədə neokolonializm meyilləri ilə yanaşı, irqçilik, ksenofobiya və islamofobiya geniş vüsət alıb. Fransada geniş xarakter alan irqçilik və islamofobiyanın yolverilməz olduğunu Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə beynəlxalq konfranslarda çıxışlarında və KİV-lərə verdiyi müsahibələrində bəyan edib. Bir qədər əvvəl Bakı şəhərində Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" adlı beynəlxalq konfransın iştirakçılarına müraciətində Prezident İlham Əliyev bildirmişdir ki, biz Fransada neokolonializm meylləri ilə paralel olaraq irqçilik və islamofobiyanın da geniş vüsət aldığını müşahidə edirik: "Bu gün burada təmsil olunan insanların bəziləri müxtəlif formada təzyiq və ayrı-seçkiliyə, irqçi hücumlara məruz qalır. Daxildə bu cür narahatedici və təhlükəli meyillərlə mübarizə aparmalı olan Fransa hakimiyyəti başqa dövlətlərə dərs keçməyə, digər ölkələrin daxili işlərinə qarışmağa cəhd edir. Fransa qoşunlarının bu yaxınlarda Mali, Niger və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır".




TƏHLİL

## Avropada dini ayrı-seçkilik təhlükəli xarakter alır

Beynəlxalq insan hüquqlarının müdafiəsi təşkilatlarının, eləcə də bir sıra müstəqil media orqanlarının yaydıqları açıqlamalara istinadən demək olar ki, Avropanın bəzi ölkələrində dini ayrı seçkilik təhlükəli xarakter alır. Fransa, Almaniya, Niderland kimi Avropa ölkələrində müsəlmanlar həbs edilir, təhqir olunur, döyülürlər. Bəzən isə, zorakılıq halları o dərəcədə amansız xarakter alır ki, polislər və müəyyən təlimatlarla hərəkət edən cinayətkar dəstələr müsəlmanları silahdan açılan atəşlə öldürməkdən çəkinmirlər. Hər zaman qərəzli, ziddiyyətli hesabatları ilə seçilən və tanınan "Human Rigs" beynəlxalq insan hüquqlarının müdafiə təşkilatı nəhayət müsəlmanlara qarşı zorakılıqların artmasından narahat olaraq, vicdanlı mövqe ifadə edib. Təşkilat açıqladığı hesabatında etiraf edib ki, dünyada insan azadlıqlarının pozulması halları daha çox ABŞ və Avropa ölkələrin də baş verir. Hüman Rigs" beynəlxalq insan hüquqlarının müdafiə təşkilatının 2024-cü il üçün yaydığı hesabatında bildirilir ki, ABŞ-da 24678 nəfər, Almaniyada 13860 nəfər, Fransada 9234 nəfər, Niderlanda 7698 nəfər, Belçikada 7543 nəfər, Yunanıstanda isə 6589 nəfər müsəlman dini inancına görə, polislərin, eləcə də yerli əhalinin təhqirlərinə və zorakılıqlarına məruz qalıb. Hətta antiislam meyilli və radikal düşüncəli, milliyyətçi avropalılar müsəlmanların ibadət evlərinin qapısına donuz başını asmaqdan belə çəkinmirlər. Bəzi hallarda isə məscidlərin divarlarına yazılmış "müsəlmanlara ölüm", "rədd olun" şüarlarına da rast gəlmək mümkündür. Belə faktların kifayət qədər çox olması onu təsdiq edir ki. hakimiyyətlər bilərəkdən ksenofob və islamofob meyilləri aktuallaşdırmasında maraqlıdır. . Bu isə ölkə rəhbərlərinin Avropa İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın, eləcə də bu istiqamət də beynəlxalq norma və prinsiplərin kobud şəkil də pozulmasıdır. Avropa İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın hüquqlar və azadlıqlar bölməsinin 2-ci maddəsinə ( yaşamaq hüququ) əsasən hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa halda həyatından məhrum edilə bilməz. Həyatdan məhrum etmə, güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda bu maddənin pozulması kimi nəzərdən keçirilmir:

(a) istənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün;

(b)qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün;

(c) qanuna müvafiq olaraq çevriliş və ya qiyamın yatırılması üçün. Həmin Konvensiyanın 3-cü (İşgəncələrin qadağan olunması) maddəsində qeyd olunur ki, heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

İnsan hüquqlarının müdafiəsindən, söz və vicdan azadlığından dəm vuran Avropa İttifaqı əməldə bölgədə kobud şəkildə insanların elementar hüquqlarını əlindən alır, söz azadlığına qarşı təhdidlərə, təzyiqlərə yol verir. KİV-lərin azad, müstəqil fəaliyyət göstərməsindən ümumiyyətlə söhbət gedə bilməz. Çünki KİV-lər tam şəkildə dövlətin və ya ayrı-ayrı böyük iş adamlarının nəzarəti altındadır.

## Avropa hakimiyyətləri xalqlar arasında birliyin yaranmasına qarşı çıxır

Bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin müvafiq strukturları Avropa ölkələrinin hakimiyyətlərindən miqrantlara, əsasən də müsəlmanlara qarşı ayrı-seçkiliyi, zorakılıq hallarını dayandırmaq barədə çağırışlar etsə də, nəticəsi olmayıb.

Ardı Səh. 12



# Mədəniyyət qıtlığı

MƏTANƏT

***Dünya müasirləşdikcə, nədənsə bəzilərimiz bundan bəhrələnə bilmirik ki, bilmirik. Yəni bir həqiqət də var ki, mədəniyyət daxildən gələn bir prosesdir, əslində bunu müasir dünya ilə bağlamaya da bilərik. Lakin bəzi hallarda insan özü nə olursa-olsun, lakin ətrafındakıları görmək, dərk etməklə həyatını qurmalı, davranışını müəyyənləşdirməlidir. Lakin təəssüflər olsun ki, hazırda bəzi insanlar arasında mədəniyyət qıtlığı yaşanır.***

Şəhərimizdə gözəl parklar salınıb. Həqiqətən də baxdıqca göz oxşayır bu parklar. Hər cür şərait yaradılan, bizlərin istirahəti üçün hər bir kiçik detal düşünülən parklara yüzlərlə insan üz tutur. Gəlin, görək, yüzlərlə insanın hamısı bu parklardan eyni mədəniyyət çərçivəsində istifadə edirlərmi? Əsla. Çünki elə insanlarla qarşılaşırsan ki, həqiqətən də düşünürsən ki, yaradılan bu gözəlliklər bəzilərimiz üçün haramdır.

Bu günlərdə gördüyüm mənzərələr yuxarıdakıları söyləməyə əsas verir. Hansı parka gedirsən-get, orada bu mədəniyyət qıtlığı yaşayan insanlarla rastlaşacaqsan. Baxmayaraq ki, addımbaşı tullantı qabları qoyulub, baxırsan ki, gənc oğlan, gənc qız oturub oturacaqlarda, tumu çırtlayıb qabığını ayaqlarının altına tökürlər. Eləcə də peçenye, kek kağızlarını. Hansı ki, əllərini uzatsalar, tullantı qablarına çatar.

Çox tez-tez rastlaşdığımız bu mənzərələr, sözün həqiqi mənasında, adamın ürəyini sıxır. Birincisi ona görə ki, düşünürsən ki, bu tullantıları yerə atanlar, ilk növbədə, insanlıqdan məhrum olmaq üzrədirlər. Çünki əllərindən süpürgə-xəkəndaz düşməyən təmizlik işçilərini görmürlər. Görmək nədir, onların çəkdikləri əziyyət barədə düşünmür, zəhmətlərinə dəyər vermirlər.

İkincisi, özlərinə hörmət hissi məhv olmaqdadır. Bir insan necə gözəl bir parkda əyləşib tum çırtlayıb, qabığını ayağının altına ata bilər? Bu, böyük mədəniyyətsizlik və haqsızlıqdır.

Üçüncüsü, fikirləşirsən ki, bu adam görəsən evində də bu hərəkəti edir? Edirsə əgər, belələrinə mədəniyyətsiz yox, vəhşi adı vermək daha doğru olardı.

Adamın bu gözəl parklara həqiqətən heyfi gəlir. Görəsən bəzilərimizin nə üçün gözəllikləri görən gözümüz vaxtından əvvəl korlaşır? Nə üçün yaradılanların qədrini bilmirik? Nə üçün ətrafımızdakı hər şeyin bizə verilən dəyər olduğunu anlamırıq?

Çünki mədəniyyət qıtlığı böhranına tuş olmuşuq. Nə qədər ediriksə, bəzilərimiz mədəniyyətlə ayaqlaşa bilmirik.

Nə etməli? İnsanların hər birinin başına bir nəzarətçi qoyulmalıdır? Yoxsa hər kəs özü özünün nəzarətçisi olmalıdır?

Gəlin, özümüzə hörmət etməsək də, bu parkları yaradanlara, onların təmizliyinə hər dəqiqə nəzarət edənlərə hörmət qoyaq. Bəzən düşünəndə və görəndə ki, o parkları təmizləyənlər ata-analarımızdan da yaşlı insanlardır, heç olmasa, bu an bir qədər mədəni olmağa çalışaq. Parklar bizim istirahətimizi necə təmin edirsə, gözəlliyi, təmizliyi ilə mənəvi dünyamıza töhfə verirsə, bizim də vəzifəmiz onların təmizliyinə, qorunmasına töhfə verməkdir. Bunu unutmayaq!

Əvvəli Səh. 11

# Neokolonializm və irqçilik meyillərinin artması Avropanı çökdürəcək

Bu yaxınlarda Bakıda keçirilən və dünyanın 32 ölkəsindən alimlərin, beynəlxalq təşkilatların ekspertlərin, din xadimlərinin və qeyri-hökumət təşkilatlarından 130-dan çox nümayəndənin iştirak etdiyi "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransda Almaniya Müsəlmanları Mərkəzi Şurasının sədri Ayman Mazyek çıxışında Avropada dini ayrı seçkiliyə yol verildiyini və islamofobiyanı bəşəriyyətə qarşı atılan atəş olduğunu söylədi. Bildirdi ki, Azərbaycan bu sahədə çox vacib addımlar atır: "Prezident İlham Əliyevin forum iştirakçılarına müraciəti zamanı vurğuladığı fikirlər tamamilə doğrudur. İslamofobiya kimi hallar bəşəri dəyərləri alt-üst edir. Qərb ölkələrində milli azlıqlara qarşı edilənlər göz önündədir. Ayrı-seçkiliyin ən böyük təzahürlərindən biri ikili standartlardır. Məsələn, Avropada müqəddəs kitab "Qurani-Kərim"in yandırılması normal qarşılanır. Ancaq həmin ölkələrdə Tövrat, İncil yandırıla bilməz. İslamı terrorçu din kimi qələmə verənlər xristianların törətdiyi terror aktlarına səssiz qalırlar. Bütün bunlar tamamilə ikili







standartlardır". Uelsin "Trinity St David" Universitetinin elmi işçisi Mohammed Sadek Hamid çıxışında bildirdi ki, biz islamofobiya ilə bağlı konkret olaraq nələrin baş verdiyinin fərqindəyik. Bunun həlli üçün məsələnin kökünü bilməliyik: "Biz təxminən 20 il ərzində müxtəlif dinlərin vəhdətini görürük. Müsəlmanlara qarşı nifrət hissinin və ayrı-seçkiliyin necə vüsət aldığının şahidi oluruq. Avropada buna yer olmamalıdır. Avropada məscidlərə qarşı da arzuolunmaz hadisələr törədilir. Müsəlmanlara fiziki hücumların, xüsusilə də qadınlara qarşı zorakılığın şahidi oluruq. Hətta müsəlmanların məzarlarında cəsədlərə qarşı törədilən əməllər çox xoşagəlməzdir. İslamofobiya hamı üçün problemdir".

Mohammed Sadek onu da qeyd edib ki, Böyük Britaniyada da müsəlmanlara qarşı münasibət dəyişməlidir. Bəzi siyasi qərarlarda mühüm dəyişikliklər edilməlidir. Eyni zamanda, mediadakı fikirlər müsbət istiqamətdə dəyişə bilər. Bu problemə qarşı birlikdə uğurlu mübarizə aparıla bilər. Avropa İnkişaf və Araşdırma Akademiyasının (EDARA) baş direktoru Brahim Laytouss müsəlmanların səlahiyyətlənməsinin və güclənməsinin çox vacib amil olduğunu deyib. Qeyd edib ki, Avropa müsəlmanları oranın vətəndaşlarıdır, orada 25 milyon müsəlman məskunlaşıb. Onlar vətəndaş kimi cəmiyyətin inkişafında iştirak etməlidirlər.

Onun sözlərinə görə, müsəlmanlar İslam diskursunu yeniləməli, alternativ təkliflər verməlidirlər. "Biz müsəlman və qeyri-müsəlman arasında fərq qoymuruq. Biz Avropanın bir hissəsiyik. Belçikada İslam din kimi 1974-cü ildən dövlət səviyyəsində təsdiqlənib. Bu ölkənin təhsil müəssisələrində 3 mindən çox müəllim din dərsi keçir", - deyə Laytouss əlavə edib. Avropa Parlamentinə keçirilən seçkilərdən söz açan baş direktor müsəlmanların bu prosesdə daha fəal iştirakının təmin edilməli olduğunu vurğulayıb. O deyib ki, Avropa Parlamentində müsəlmanlar, sadəcə, 11 faiz təşkil edir.

Pakistanda Siyasət Araşdırmaları və Təbliğat Mərkəzinin icraçı direktoru Əhsən Həmid diqqətə çatdırıb ki, Azərbaycanda milli azlıqların sülh içərisində yaşaması çox yaxşı nümunədir. Avropa ölkələri bu siyasəti mənimsəməli və tətbiq etməlidir.

İslamofobiyanın Avropada siyasi silaha çevrildiyinə diqqət çəkən Əhsən Həmid vurğulayıb ki, Qərb ölkələrində müsəlmanları təhdid kimi qələmə verirlər. "Müsəlman ölkələrindən Avropaya səyahət edənlərə viza verilməsi gecikdirilir, bəzən isə ümumiyyətlə verilmir. İslamofobiya partiyaların siyasətinə çevrilib. Qərb mediası isə ictimaiyyətdə qərəzli fikirlərin formalaşmasında çox böyük rol oynayır. Məscidlər bağlanır, müsəlmanlar üçün yeni ibadət yerlərinin açılması qadağan olunur. Ukraynalı qaçqınlarla Əfqanıstandan gələn köçkünlərə qarşı reaksiyalar eyni deyil. Fransada hicablı qadınlar iş yerlərindən qovulur, təhsildən uzaqlaşdırılır", - deyə icraçı direktor bildirib. Ə.Həmid əlavə edib ki, müsəlmanlar məruz qaldıqları ayrı-seçkilik halları ilə bağlı təcrübələrini bölüşməlidirlər. Ancaq maarifl ənmək yolu ilə islamofobiya hallarının qarşısını almaq mümkündür.



## Bədbinliyə qapılmağa səbəb olan amillər

ABŞ-ın Yeni Orlean şəhərindəki Tulane Universitetinin siyasət üzrə professoru Raymond Casimer Taras isə ABŞ-da islamofobiya ilə bağlı məlumatlılığın çox aşağı səviyyədə olduğunu söyləyib.İslamofobiyaya rəvac verən daxili amillərə mütləq nəzər yetirilməli olduğunu vurğulayan professor deyib ki, islamofob düşüncəyə şərait yaradan, bir növ ona səbəb olan halların kökündə yanlış siyasət dayanır. Fəlsəfi olaraq bu vəziyyət islamofobiyanın dərin laylara keçməsinə, irqçi hərəkatların formalaşmasına və yayılmasına imkan verir."Biz müstəmləkəçiliyə qarşı çıxış edirik. Neomüstəmləkəçiliyin necə geniş vüsət aldığını görürük. Bu məsələlərlə bağlı məlumatlılıq artırılmalıdır", - deyə o diqqətə çatdırıb.

Zalsburq Universitetinin sosiologiya və insan coğrafiyası kafedrasının dosenti Volfqanq Aşauer qeyd edib ki, iqlim dəyişmələri, Qərbdə baş verən müharibələr bədbinliyə qapılmağa səbəb olan amillərdir. Bütün bu mənfi amillər mədəni və sosial qütbləşməyə səbəb olur. Çox zaman isə problemlərə, sosial tənəzzülə görə müsəlman miqrantları qınayırlar.

Dünya birliyinin, xüsusi ilə də, BMT-nin yüksək tribunalarından Avropa və ABŞ rəhbərliyinə ölkələrində müsəlmanlara qarşı ayrı-seçkilyin, zorakılıq hallarının dayandırılması çağırışlarına baş bilənlərin münasibət bildirməmələri onların törədilən qeyr-insani hallada maraqlı olduqlarını göstərir.

Bu yaxınlarda dünyaca məşhur milyarder İlon Mask bəyan etmişdir ki, "Avropanın, əsasən də Norveç TV-lərində yayımlanan verilişlər, saytlarında dərc olunan yazılar yüz faiz dezinformasiya və ya yalan üzərində qurulur". Belə bir acınacaqlı vəziyyətin hökm sürdüyü Avropadan ədalətli mövqe, insan azadlıqların hörmət gözləməyə dəyməz. Avropanın əksər ölkələrində yerli əhali ilə yanaşı hakimiyyət miqrantlara qarşı da zorakılıq hallarına yol verirlər. Yaxşı həyat, yüksək təminat arzusu ilə Avropa ölkələrinə üz tutan miqrantlar elə sərhəddə ciddi əngəllərlə üzləşməli olurlar. Bəzi hallarda müxtəlif məbləğdə rüşvət qarşısında ölkəyə buraxılan miqrantlar qalmaq üçün yer tapa bilmir və viza rejimi ilə üzləşir, iş tapmaqda ciddi problemlərlə qarşılaşırlar. Sonrakı mərhələdə isə hakimiyyətlərin göstərişi ilə Almaniya, Fransa, Niderland, Yunanıstan, Norveç və digər ölkələrin əhalisi tərəfindən miqrantlar təhqir edilir, döyülürlər. Miqrantların sözügedən ölkələrdə üzləşdikləri problemlər sırasında antisemit və islamafob meyillərin güclənməsi də ciddi problemlərdən hesab olunur. Almaniyada və Niderlanda ketdikcə güclənən nasi təşkilatların üzvləri miqrantlara qarşı hər cür alçaldıcı mövqe sərgiləyirlər. Bu cür təhqiramiz səhnələr birbaşa polislərin gözü qarşısında baş versə də asayiş keşikçiləri sumağa üstünlük verirlər. Bu da məsələnin yuxarı rəsmi orqanlarla razılaşdırıldığından xəbər verir. Söz yox ki. belə bir davranış həmin cəmiyyətlərin naşılığından və hələ də orta əsrlər təfəkküründə qalmalarından irəli gəlir. İnsanlığa fərqli yanaşma göstərən cəmiyyət və həmin cəmiyyətin hakim zümrəsi uzun ömürlü ola bilməz. Onlar gec və ya tez mövcudluqlarını itirməlidirlər. Ona görə də, əminliklə demək olar ki, dini inaclarına görə insanları təqib və təhqir edən Avropanın bəzi ölkələri dövlət siyasətlərini dəyişməyəcəkləri təqdirdə onları çox böyük fəlakətlər gözləyir. Ən azı onlar dünya birliyindən təcrid oluna, hətta dağılmağa və ya başqa sivil, demokratik dövlətlərə birləşə bilərlər.

***İLHAM ƏLİYEV***

# Elm miflərə qarşı: Qafqaz Albaniyası və erməni yalançı tarixi

## Arximandrit Aleksey: "Erməni təbliğatçıları regionun keçmişini təhrif edən psevdo-elmi rəvayətləri yeritməyə çalışırlar, lakin bu, tarix elmi tərəfindən təkzib olunur"

***Müqəddəs Mirra İrsi Qadınlar Katedralinin keçmiş baş rahibi və uzun illər Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının rəhbəri olmuş Arximandrit Aleksey (Nikonorov) Azərbaycanda tanınmış və hörmətli şəxsiyyətdir. Onu təkcə kilsə üzvləri deyil, həm də dindən uzaq olan bir çox bakılılar qiymətləndirirlər.***

Arximandrit Aleksey həm də uzun illərini qədim Azərbaycan ərazisində yerləşən və əcdad irsimizin ayrılmaz hissəsinə çevrilmiş Qafqaz Albaniyasının tarixinin tədqiqinə həsr etmiş görkəmli alimdir. Qonşularının əfsanə və yalanlarını ifşa edən əsərinə görə o, ölkəmizin və xalqımızın tarixi keçmişini inkar etməyə çalışan Azərbaycanı pisləyənlər üçün son dərəcə əlverişsiz olduğunu sübut etdi.

Bir il əvvəl Aleksey ata rəsmi vəzifələrini yerinə yetirmək üçün Azərbaycanı tərk etdi və Maltadakı pravoslav icmasının rəhbəri oldu. Bununla belə, o, akademik araşdırmalarından əl çəkmədi. Onun Qafqaz Albaniyasının tarixinə dair, xüsusən də Romada keçirilən konfransda təqdim etdiyi son əsərləri Bakı din xadimini ləkələməyə çalışan erməni ruhanilərinin, revanşistlərinin və radikallarının yeni hücum dalğasına səbəb oldu.










Aleksi Ata Caliber.Az-a müsahibəsində din, psevdotarix və Armagitprop mifləri ilə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Romada keçirilən akademik konfransda təqdim olunan yeni işinizin nəticələri nə oldu? Xüsusilə erməni lobbisinin reaksiyası necə oldu?***

- 10 aprel 2025-ci il tarixində Vatikanın aparıcı universitetlərindən biri olan Papa Qriqorian Universitetində Azərbaycanda xristianlığa həsr olunmuş beynəlxalq konfrans keçirildi. Bu mötəbər forumda 15 ölkədən ekspertlər iştirak ediblər. Sessiyalardan birinin kuratorluğu və 17-ci əsrdə Səfəvilər dövründə Gəncəsər Katolikosluğu haqqında məruzə təqdim etmək şərəfinə nail oldum.

Əsas mənbə 1691-ci ildə Osmanlı İmperiyasının paytaxtında hazırlanmış, Boloniya Universitetinin arxivindən yeni aşkar edilmiş topoqrafik xəritə idi. Bu xəritə Qafqaz Alban Kilsəsinin vəziyyətini ətraflı şəkildə yenidən qurmağa və o dövrdə hansı yepiskop iqamətgahlarının, monastırların və ziyarətgahların fəaliyyət göstərdiyini müəyyən etməyə imkan verir. Bu yanaşma Qafqazda heç vaxt erməni kilsəsindən başqa heç bir kilsənin olmadığını iddia etməyə çalışan opponentlərimiz üçün son dərəcə zərərli olduğunu sübut etdi.

Konfransın yekununda erməni icması sözün əsl mənasında hiddətləndi. Onlar tədbirin mahiyyətindən xəbərsiz olaraq foruma "antielm", "antiermənі", hətta "irqçi" damğasını vurmağa cəhd ediblər. Təbii ki, bu tamamilə səhvdir.

İki həftə ərzində erməni din xadimləri, "alimlər" və sadəcə olaraq "narahat olan şəxslər" Vatikanın strukturlarını "bombalayaraq", universitet rektorunu və papalıq kilsələrinin iki prefektini "persona non qrata" elan etməyə çağırdılar. Bütün bunlar isə sadəcə olaraq, onların erməni olmayan qafqazşünaslara tribuna verməyə cəsarət etdiklərinə görədir. Bu, təəssüf ki, çoxlarının özünü cəlb etdiyi əsl absurd teatrıdır.

***- Vətəninizdən uzaqda xidmətiniz necə keçir? Katolik Maltada pravoslav dəyərləri necə qəbul edilir?***

- Qərbi Avropada xidmətin xüsusiyyəti ondan ibarətdir ki, icmaları ilk növbədə vətənlərindən uzaqda olan miqrantlar təşkil edir. Onlar üçün mənəvi dəstək və oxşar çətinliklərlə üzləşən insanlarla ünsiyyət qurmaq imkanının olması xüsusilə vacibdir. Kilsə qaranlığı dağıdan işıq mənbəyini Allahda taparaq, dağılmamaq, sınaqlara qalib gəlmək və özünü qorumaq üçün bir yol olur.

Mənə gəlincə, Malta bir çox cəhətdən mənə Abşeron yarımadasını xatırladır: ılıq dənizin yuduğu qayalı sahillər və yerli əhəng daşından tikilmiş istehkamlar xüsusi yaxınlıq hissi oyadır.

***- Moskva Patriarxlığı və xarici alimlər sizin işinizi necə qarşılayırlar?***

- Qafqaz Alban Kilsəsinin tarixinə dair ilk akademik işim pravoslav və qeyri-kalsedon kilsələrinin hörmətli alimi, Moskva İlahiyyat Akademiyasının professoru Boris Aleksandroviç Nelyubovun rəhbərliyi altında hazırlanmışdır. (Bu, Xristoloji mübahisələrə görə 451-ci ildə Xalkedon Şurasının qərarlarını rədd edən xristian kilsələrinə aiddir. Bu gün bunlara Efiopiya, Kopt, Süryani, Erməni, Eritreya və Malankara kilsələri daxildir-Red.)

Moskva İlahiyyat Akademiyasında dissertasiyamı müdafiə etdikdən sonra mənə ilahiyyat elmləri namizədi elmi dərəcəsi verildi ki, bu da Avropanın ilahiyyat üzrə fəlsəfə doktoru dərəcəsinə bərabərdir. Bu mövzuda araşdırmalarımı davam etdirmək üçün Həzrətləri Patriarx II Aleksi məni Romaya göndərdi və orada həm magistratura, həm də doktorantura proqramını bitirdim.

2024-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəstəyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix və Etnoqrafiya İnstitutu Qafqaz Albaniyası Kilsəsi haqqında kitabımı ingilis dilində nəşr etdi. Dünyanın bütün aparıcı tarixi kitabxanalarına göndərilib.

Məqsədimiz Cənubi Qafqazın tarixinə və onun xristian irsinə ayıq və doğru baxışı təqdim etməkdir. Erməni təbliğatçıları regionun keçmişini təhrif edən psevdo-elmi rəvayətləri yeritməyə çalışırlar.

***- Əməyiniz elmi olaraq tanınıb.***

- 2021-ci ildə Musa Kalankatuyskinin yaradıcılığına dair monoqrafiyam nəşr olunandan bəri heç bir ciddi qafqazşünas onu tənqid etməyib. Əksinə, çoxlu müsbət rəylər almışam. Hücumlar millətçilər tərəfindən həyata keçirilir, onlar saxta klişelərdən istifadə edirlər: "elm əleyhdarı", "təbliğat", "dinlərarası sülhün məhv edilməsi" və s. Onların elmi arqumentləri yoxdur, buna görə də hər şey komik görünür.

***- Buna baxmayaraq, bədxahlar çoxdur. Erməni "Geqard Fondu" sizi faktları təhrif etməkdə ittiham edir- "1918-ci ilə qədər nə Azərbaycan dövləti, nə də "azərbaycanlı" etnonimi mövcud olmayıb".***

- Bu ittihamları regionun tarixindən az xəbəri olan siyasiləşmiş, revanşist dairələr səsləndirir. "Azərbaycanlı" etnoniminin olmaması ilə bağlı iddialar tamamilə yalandır.

Qədim dövrlərdən bəri bölgə qədim və orta əsr mənbələrində "Azərbaycan" toponiminin pəhləvi forması olan "Atarpatakan" kimi qeyd edilmişdir. Ərəb mənbələrində "Ədərbaycan ölkəsi" qeyd olunur. XII-XIII əsrlərə aid Cənubi Qafqaz Atabəyləri dövləti "Atabekan-e Adarbaican" kimi tanınır.

Əgər bu cür əsas faktlara "Geghard Foundation" müəlliflərinin əli çatmazsa, bəlkə də başlıqlarından "alim" sözünü çıxarmalıdırlar. Mənim kilsə rəhbərlərim, şübhəsiz ki, bu şikayətlərin müəlliflərindən daha savadlıdırlar. Akademik ictimaiyyətdə tədhid və qışqırmaqla deyil, arqumentlərlə cavab vermək adətdir.

***- Erməni kilsəsini monofizit yox, miafizit adlandırdığınız zaman niyə bu qədər inciyir? Bəs niyə 17-ci əsrin topoqrafik xəritəsindəki məqalənizə etiraz edirlər?***

- Doqmatik məsələlər adi insan üçün mürəkkəbdir. Mütəxəssislər bilirlər ki, erməni ilahiyyatı miafizit kimi təsnif edilməlidir. Bununla belə, tarixi ədəbiyyatda ənənəvi olaraq "monofizit" terminindən istifadə olunur.

Görkəmli tarixçi V.V. Bolotov yazırdı: "Ermənilər... monofizit icmasına daxil oldular, lakin orada nə şərəf, nə də şöhrət qazandılar; onların vəziyyəti acınacaqlı idi, ritualları isə axmaqlıq hesab olunurdu". Məni yox, klassikləri tənqid etmək lazımdır.

Məqaləyə gəlincə, Səfəvi imperiyasına (1501-1722) aid mənbələrdə mərkəzləri Şamaxı, Gəncə, İrəvan və Təbrizdə olan bəylərbəyləri Azərbaycan hökmdarları tərəfindən idarə olunurdu və fars, osmanlı və ərəb mənbələrində "azərbaycanlı" adlandırılırdı.

Ermənilərin İrəvanda yaşadığını inkar etmirəm, lakin onların dövlətçiliyi o vaxtdan çox-çox əvvəl itirilib. Ona görə də müxtəlif dövrlərdə şəhərləri fars, osmanlı və ya azərbaycanlı adlandırmaq olardı- bu, tarixi reallıqdır.

Rəqiblərim yel dəyirmanları ilə mübarizə apardıqlarını unudub Don Kixotu oynayırlar.

***Tərcümə - Elçin Bayramlı***

# Azadlığa qovuşan Xankəndi, Xocalı, Xocavənd və Ağdərə Şəhərləri Günü



***Azərbaycan Respublikasının müasir tarixində əlamətdar hadisələrdən biri 20 sentyabrın Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi qeyd olunmasıdır. Prezident cənab İlham Əliyevin 18 sentyabr 2024-cü il tarixli Sərəncamına əsasən bu günün təsis edilməsi, Azərbaycan xalqının otuz ildən artıq müddətdə yaşadığı həsrətin sonu, milli qürur və qələbə rəmzi kimi mühüm tarixi hadisədir. Bu günün qeyd olunması, eyni zamanda, dövlətçilik ənənələrinin möhkəmlənməsi, milli birliyin güclənməsi və işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin geniş miqyas almasının bariz nümunəsidir.***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan parlaq qələbə, işğal altında olan torpaqlarımızın azad edilməsinə və tarixi ədalətin bərpasına gətirib çıxardı. 2023-cü il oktyabrın 15-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərində Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldıldı. Dövlət başçısı həmin gün çıxışında qeyd edirdi:"Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm    Mən verdiyim bütün vədləri yerinə yetirdim. Azərbaycan xalqı uzun illərdir bu günü gözləyirdi və şükürlər olsun ki, biz bu tarixi anı birlikdə yaşadıq."

Bu hadisə yalnız dövlətçilik tariximizin deyil, eyni zamanda bütün regionun gələcək inkişafının təməl daşlarından biri hesab olunur. Çünki Xankəndi və digər işğaldan azad edilmiş şəhərlərin yenidən qurulması, Qarabağın sosial-iqtisadi, mədəni və siyasi həyatının canlanmasına böyük töhfə verir.

Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma proqramı həyata keçirir. Bu istiqamətdə görülən işlər həm strateji, həm də sosial əhəmiyyət kəsb edir. 2023-cü ilin noyabrında Prezident cənab İlham Əliyevin Sərəncamı ilə Xankəndidə "Qarabağ Universiteti"nin yaradılması, bölgədə yüksəkixtisaslı kadrların hazırlanması üçün mühüm addımdır. Bundan əlavə, Ağdərə rayonunun yenidən inzibati ərazi vahidi kimi formalaşdırılması, tarixi-coğrafi ədalətin bərpası baxımından xüsusi önəm daşıyır.

İşğaldan azad olunmuş şəhərlərdə müasir infrastrukturun qurulması, yolların, məktəblərin, səhiyyə müəssisələrinin və idman obyektlərinin istifadəyə verilməsi, Qarabağın gələcək inkişafını təmin edən vacib faktorlar sırasındadır. Xankəndidə Konqres Mərkəzinin, yeni otellərin, Zəfər parkının və digər mühüm obyektlərin açılışı Azərbaycanın güclü iradəsinin və sistemli inkişaf strategiyasının göstəricisidir.



*Ayna NOVRUZOVA,*
*Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri*

Xankəndi, Xocalı, Xocavənd və Ağdərə yalnız coğrafi məkan deyil, həm də Azərbaycan xalqının tarixində mühüm mədəniyyət ocaqlarıdır. Xocalı soyqırımının xatirəsinin əbədiləşdirilməsi məqsədilə memorial kompleksinin təməlqoyma mərasimi, həm tarixi ədalətin bərpasına xidmət edir, həm də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə töhfə verir.

Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın bu torpaqlara səfərləri, müxtəlif sosial layihələrin açılışında iştirakı həm dövlətin diqqətini, həm də xalqın mənəvi birliyini ifadə edir. Xocalı, Xocavənd və Ağdərədə həyata keçirilən tədbirlər, bölgənin tarix boyu Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi olduğunu sübut edir.

Qarabağın işğaldan azad olunması və həmin ərazilərdə bərpa işlərinin aparılması yalnız Azərbaycanın milli maraqlarına deyil, həm də regional sabitlik və təhlükəsizliyə xidmət edir. 2025-ci ildə Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün keçirilməsi, Qarabağın beynəlxalq əhəmiyyətini bir daha nümayiş etdirmişdir. Bu, həm də Azərbaycanın regionda lider dövlət kimi mövqeyini möhkəmləndirən mühüm amildir.

Azərbaycanın həyata keçirdiyi bərpa siyasəti, qonşu ölkələrlə əməkdaşlığın inkişafı və yeni nəqliyyat-logistika layihələri Qarabağın beynəlxalq iqtisadi məkanla inteqrasiyasına şərait yaradır.

20 sentyabrın Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi təsis edilməsi, Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi olmuşdur. Bu gün, təkcə hərbi qələbənin deyil, həm də bərpa, inkişaf və milli birliyin simvoludur. Azərbaycan xalqı bu torpaqlarda həyatın bərpası ilə dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli kimliyin qorunmasına və gələcək nəsillərə güclü dövlət mirasının ötürülməsinə nail olur.

Əldə olunan Zəfər və görülən quruculuq işləri göstərir ki, Azərbaycan dövləti öz güclü iradəsi, iqtisadi potensialı və milli həmrəyliyi ilə həm tarixini, həm də gələcəyini formalaşdırmaqdadır.

*SOSİOLOQ AÇIQLADI*

# Sosial mediada həddindən artıq vaxt keçirmək nələrə səbəb olur?

Müasir dövrün ən mühüm texnoloji nailiyyətlərindən biri internetin və sosial şəbəkələrin insan həyatına inteqrasiyasıdır. Artıq gündəlik həyatımızı bu vasitələr olmadan təsəvvür etmək çətindir. İnformasiya axtarışından tutmuş ünsiyyətə, iş fəaliyyətindən asudə vaxta qədər bir çox sahədə internet və



sosial media mühüm rol oynayır. Bu inkişaf insan həyatını asanlaşdırmaqla yanaşı, ona yeni imkanlar da təqdim edir. Lakin bu imkanlarla yanaşı, müəyyən risklər və mənfi təsirlər də meydana çıxır.

***Ümumiyyətlə gün ərzində insanlar internet qarşısında nə qədər vaxt keçirməlidir?***

Məsələ ilə bağlı sosioloq Üzeyir Şəfiyev SİA-ya açıqlamasında bildirib ki, artıq XXI əsr informasiya texnologiyalarının, rəqəmsal aləmin və süni intellektin sürətlə inkişaf etdiyi bir dövrdür:

"Bu dövrə təsadüfi olaraq "internet əsri" deyilməyib. İnternet və sosial şəbəkələr insanların gündəlik həyatına dərin şəkildə nüfuz edib, bir çox hallarda həyat tərzimizi, ünsiyyət formamızı, hətta düşüncə tərzimizi belə dəyişdirib. Bu, qarşısıalınmaz və qaçılmaz bir prosesdir. Onunla mübarizə aparmaq küləyə qarşı döyüşməyə bənzəyir - nəticəsiz və qeyri-effektiv. Əslində, internet və sosial şəbəkələr düzgün və məqsədyönlü istifadə edildikdə, onlardan çox böyük fayda əldə etmək mümkündür. Milyonlarla insan məhz bu platformalar vasitəsilə öz şəxsi brendini yaradıb, biznes qurub, karyerasını formalaşdırıb və qlobal arenada tanınıb. Onlayn təhsil imkanları, distant iş modelləri və informasiya resurslarına asan çıxış internetin müsbət tərəfləri kimi çıxış edir. Süni intellektin də daxil olduğu bu texnoloji inkişaf insanlara zaman və resurs qənaəti baxımından böyük üstünlüklər təqdim edir. Lakin hər bir inkişafın kölgə tərəfləri də var. İnternetdən həddindən artıq istifadə etmək, xüsusilə də sosial şəbəkələrdə vaxt itirmək psixoloji və fiziki baxımdan bir sıra mənfi nəticələrə səbəb ola bilər. Bu, ilk növbədə insanda internet asılılığının yaranmasına gətirib çıxarır. Nəticədə insan real həyatdan uzaqlaşır, sosial əlaqələri zəifləyir, vaxtını düzgün planlaşdıra bilmir və enerjisini mənasız informasiya axınında itirir. Bu proses uşaqlarda daha kəskin şəkildə müşahidə olunur - onların diqqət dağınıqlığı artır, məntiqi və riyazi təfəkkürü zəifləyir, zehni fəaliyyətləri passivləşir. Böyüklər də bu mənfi təsirlərdən sığortalanmayıb. Uzunmüddətli internet istifadəsi yorğunluğa, zehni tükənməyə, hətta bəzi hallarda depressiya və narahatlıq pozuntularına gətirib çıxara bilər. Bütün bu faktorları nəzərə alaraq, bir sıra Avropa ölkələrində internet istifadəsinə və xüsusilə sosial şəbəkə fəaliyyətinə dair müəyyən məhdudiyyətlər və tənzimləyici qaydalar tətbiq olunub. Məktəblərdə və ailələrdə internet istifadəsi ilə bağlı maarifləndirmə işləri aparılır, həmçinin uşaq və yeniyetmələr üçün xüsusi limitlər müəyyən edilir.




Məncə, bu istiqamətdə hüquqi mexanizmlərin formalaşdırılması vacibdir. Sosial şəbəkələrin fəaliyyətini tənzimləyən ayrıca qanunların hazırlanması, eləcə də fərdi məlumatların qorunması, kiberbullinqin qarşısının alınması və azyaşlıların zərərli məzmundan qorunması kimi məsələlər müasir dövrün tələbidir.

Nəticə etibarilə, əsas məsələ interneti və sosial şəbəkələri inkar etmək deyil, onlardan düzgün istifadə etməyi öyrənməkdir. Texnologiyanı həyatın faydalı bir hissəsinə çevirmək, onu idarə etmək və onun tərəfindən idarə olunmamaq bizim əlimizdədir. Bu, həm fərdi, həm də cəmiyyət səviyyəsində sağlam və balanslı yanaşma tələb edir".

***Arzu Qurbanlı***

# Yurdda sülh, cahanda sülh

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*







**Qarşıdan 21 sentyabr tarixi gəlir, yəni Beynəlxalq Sülh Günü. Bu gün BMT-nin 30 noyabr 1981-ci il qərarı ilə bütün dünyada qeyd olunur. Dünyanın 192 ölkəsi yekdil olaraq bu qərarın lehinə səs verib. Ümumdünya Sülh Günü bütün dünyanı müharibədən qaçmağa, sülhə təşviq etməyə, zorakılığa son qoymağa və insan haqlarını qorumağa səsləmək üçün təsis edilib.**



Ümumdünya Sülh Günü bütün dünyada tədbirlərlə, dinc nümayişlərlə qeyd olunur, sülhün əhəmiyyətini vurğulayan, insanları münaqişələrə son qoymağa səsləyən, müharibənin qarşısını almaq və bütün dünyada daha ədalətli və davamlı sülh yaratmaq üçün dostluq və qardaşlıq çərçivəsində yaşamağa təşviq edən tədbirlər görülür. Ümumdünya Sülh Günü müharibə və zorakılığın dağıdıcı təsirlərini anlamaq və bütün anlaşmazlıqların müharibə yerinə sülh yolu ilə həll yollarını tapmağa təşviq edir.

Ümumdünya Sülh Günündə sülh yürüşləri, konfranslar, seminarlar, bədii tədbirlər, insan hüquqları kampaniyaları keçirilir, sülhü tərənnüm edən abidələr ziyarət edilir. Bir sözlə, Birləşmiş Millətlər Təşkilatı Ümumdünya Sülh Günündən sülh və təhlükəsizliyi təşviq etmək üçün maksimum istifadə etməyə çalışır, bu özəl gündə hər il fərqli sülh istiqaməti ətrafında təbliğatlar aparır.

Bu istiqamətlərdən birincisi sülhün əhəmiyyətinin qeyd edilməsidir. Ümumdünya Sülh Günü sülhün dəyərini və əhəmiyyətini vurğulamaq üçün bir fürsətdir. Sülhün qeyd olunduğu bu gündə dünyanın bütün ölkələri və cəmiyyətləri bir araya gəlir, sülh hökm sürən bir cəmiyyətdə olacaq gözəlliklər və nailiyyətlər haqqında müzakirələr aparılır. İkinci istiqamət zorakılığa son qoymaq məsələsidir. Ümumdünya Sülh Günü bütün dünyada münaqişələrə son qoymağa və zorakılığın azaldılmasına çağırır. İnsanların özlərini təhlükəsiz hiss etmələri və həyatlarını daha yaxşı yaşamaları üçün sülhün qorunması mühüm əhəmiyyət kəsb edir.



Üçüncü, diplomatiya və danışıqlardır. Sülh Günü həmçinin diplomatiya və danışıqların əhəmiyyətini vurğulayır. Ölkələr və cəmiyyətlər arasında mübahisələrin, narazılıqların, münaqişələrin sülh yolu ilə həllini təşviq etmək bu günün mühüm məqsədidir. Dördüncü mühüm istiqamət, insan hüquqları və ədalətdir. Ümumdünya Sülh Günü insan hüquqlarının qorunmasını və ədalətli dünya nizamının qurulmasını dəstəkləyir. Axı ədalət və bərabərlik sülhün təməl daşlarıdır.

Beşinci istiqamət, beynəlxalq əməkdaşlıqdır ki, bu da sülhün yalnız bir ölkənin və ya cəmiyyətin məsuliyyəti olmadığını vurğulayır. Ümumdünya Sülh Günü beynəlxalq əməkdaşlıq və həmrəyliyin əhəmiyyətini vurğulayaraq sülhün bütün dünyada, bütün ölkə və cəmiyyətlərdə davamlılığına töhfə verir. Altıncı, ən ağrılı məsələ müharibənin dağıdıcı təsirləridir. Ümumdünya Sülh Günü bizə müharibə və zorakılığın dağıdıcı nəticələrini xatırladır, münaqişə gedən ərazilərdə bu nəticənin qaçınılmaz olduğunu bildirir. Müharibələr insan tələfatına səbəb olur, milyonlarla insanı yurdundan didərgin salır və ölkələrin iqtisadiyyatlarını məhv edir. Xatırlayın, I və II Qarabağ Müharibələri bizə nə qədər dağıntıya, tələfata, insan ölümünə, qaçqın və məcburu köçkünlüyə başa gəldi. Müharibə istəməyən bir ölkə olmasına rəğmən Azərbaycan müharibəyə çox qurban verdi. Yeddinci, sülhün sosial və iqtisadi faydaları barədə məlumatlılıqdır. Sülhün əldə edilməsi cəmiyyətlərin rifahını artıra və iqtisadi inkişafa təşviq edə bilər.

İnsanlar arasında ayrı-seçkiliyin, bərabərsizliyin, müharibənin, nifrətin, qəzəbin kök saldığı bu dövrdə sülh vacibdir, şərtdir. Beynəlxalq Sülh Günü hamımıza bərabərlik, insanlıq və sülh içində yaşamağı bəxş etsin, təmənnamız budur. Vətənimizin bütövlüyünə təcavüz edənlərlə, ərazi toxunulmazlığına müdaxilə edənlərlə bir cəmiyyətdə sülh içində yaşamaq mümkün olmasa da Azərbaycan buna maksimum əməl etməyə çalışdı, müharibə olmasın deyə 30 il danışıqlar yolu ilə ərazi bütövlüyünü bərpa etməyə çalışdı. Siseronun dediyi kimi, "ən pis sülh ən ədalətli müharibədən yaxşıdır" misalına əməl etdi. İnsanlar ölməsin, sülh pozulmasın deyə.

Lakin düşmən durmadı, dayanmadı, daha çoxuna göz dikdi. 30 ildən sonra dövlətimiz öz ərazi bütövlüyünü bərpa etdi, bunun üçün dinc əhalini öldürmədi, başqa dövlətin ərazisinə müdaxilə etmədi, sadəcə, ədaləti bərqərar etdi. Çünki Azərbaycan dövləti sülhün, suverenliyin əhəmiyyətini anlayır, bu uğurda çox qurban verib, çox cəfa çəkib. Dilsiz körpələri, hamilə qadınları, yaşlı insanları qətl edilən bir ölkə olmasına rəğmən müharibədə çox ədalətli davrandı Azərbaycan. Dinc əhaliyə hücum etmədi, yaşayış məntəqələrini hədəf almadı.

Azərbaycan öz ərazi bütövlüyünü qorudu, qoruyur, qonşu dövlətlərin ərazisində heç bir iddiası yoxdur və istəyi sülhdür. Təmənnamız sülh günündə səmaya buraxılan ağ göyərçinlərin hamımıza sülh gətirməsi, bütün dünya millətlərini insanpərvər, mehriban, qardaşcasına birləşdirməsidir. Lakin insan övladının başqasının torpağına, azadlığına, haqqına göz dikdiyi müddətcə bu birləşmə mümkün olmayacaq. Dünyada sülh və bərabərlik bütün dünya insanlarının idealıdır. İdealımız uğrunda nələrdən imtina etməli, nələrə qatlaşmalı, nələri qurban verməliyik daha?

***Lalə Mehralı***

# SƏS

SON SƏHİFƏ

19 sentyabr 2025-ci il


"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## "Formula-1" yarışları ölkəmizin turizminə böyük təsir göstərir"



"Formula-1" yarışları dünyada elitar idman növü hesab olunur və ölkəmizin turizminə olduqca böyük təsir göstərir". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Nizami Həsənov deyib.

Onun sözlərinə görə, bu idman növü yalnız maraqlı tamaşa deyil, eyni zamanda turizm iqtisadiyyatı baxımından çox ciddi rola malikdir: "Yarışların keçirildiyi günlərdə Azərbaycana gələn turistlərin sayında əhəmiyyətli artım müşahidə olunur. Təsadüfi deyil ki, "Formula-1" bahalı idman növü olduğuna görə bu yarışları izləmək üçün ölkəmizə gələnlərin əksəriyyəti yüksək gəlirli turistlərdir. Belə turistlər təkcə "Formula-1" yarışlarını izləməklə kifayətlənmirlər. Onlar eyni zamanda Azərbaycanın tarixi və mədəni məkanlarını ziyarət edir, milli mətbəximizin dadına baxır və təklif olunan müxtəlif turizm xidmətlərindən yararlanırlar. Bu isə ölkəmizin turizm sektorunun inkişafına təkan verir, xidmət keyfiyyətinin yüksəldilməsinə və yeni imkanların yaranmasına şərait yaradır. Eyni zamanda, yerli sahibkarlar üçün əlavə qazanc mənbəyi formalaşır və iqtisadiyyata ümumilikdə müsbət təsir göstərir.

"Formula-1" yarışlarının Azərbaycanda keçirilməsi yalnız turizm baxımından deyil, həm də ölkəmizin siyasi və iqtisadi mövqeyinin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Dünyanın diqqətini Bakıya yönəldən bu yarışlar Azərbaycanı beynəlxalq arenada tanıdır, ölkəmizin müasir, inkişaf etmiş və təhlükəsiz bir məkana çevrildiyini nümayiş etdirir. Bu tədbirlər həm idman sahəsində, həm də siyasi-iqtisadi münasibətlərdə ölkəmizin nüfuzunun artmasına xidmət edir".

***Günel Fərzəliyeva***

## Yük maşını velosiped sürən 9 yaşlı uşağı vurub öldürdü!



Hacıqabulda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Belə ki, yük avtomobili velosiped sürən 9 yaşlı uşağı vuraraq öldürüb. Hadisə gecə saatlarında Bakı-Qazax magistralının rayonun Atbulaq kəndi ərazisindən keçən hissəsində qeydə alınıb.

Belə ki, rayonun Atbulaq kənd sakini, 2006-cı il təvəllüdlü M.V velosipedlə hərəkətdə olarkən onu yük avtomobili vurub. Azyaşlı aldığı xəsarətlərdən dünyasını dəyişib. Faktla bağlı araşdırma aparılır.

## Həddindən ucuz olan malları almaq hansı təhlükələrə yol açır?

*AİB sədri mühüm məqamlara aydınlıq gətirdi*



Müasir dövrdə ticarət və marketinq sahəsində rəqabət günü-gündən artmaqdadır. Şirkətlər və mağazalar müştəriləri cəlb etmək, satış həcmini artırmaq və bazarda mövqelərini qorumaq üçün müxtəlif strategiyalardan istifadə edirlər. Bu strategiyalardan ən geniş yayılmış və təsirli olanlardan biri də endirim kampaniyalarıdır. Endirimlər alıcılara cəlbedici qiymətlər təklif etməklə yanaşı, onların alış qərarına birbaşa təsir göstərir. Maraqlıdır, görəsən, marketlərdə və ya bazarlarda endirimə düşən, həddindən ucuz olan malları almaq təhlükəlidirmi? Məsələ ilə Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov SİA-ya açıqlamasında bildirib ki, endirimlər bütün dünya ölkələrində var və onların səbəbləri çox müxtəlifdir: "Bu bir marketinq siyasətidir. İlk növbədə böyük şəkildə hər yerdə olunan endirimlərin məqsədi alıcıları qapıdan içəri salmaqdır. Bundan əlavə endirimlər mağazanın bağlanması və ya məhsulun artıq istehsaldan çıxarılması ilə bağlı ola bilər. Qida məhsullarında diqqətli olmaq lazımdır. Adətən yararlılıq vaxtı keçməyən, amma pis şəraitdə saxlanılmış və tezliklə xarab olacaq mallar endirimdə ola bilər. Bundan əlavə, endirimlər bəzən məhsul stokunun azalması və ya mağazanın bağlanması ilə əlaqədar həyata keçirilə bilər. Məsələn, müəyyən bir marka artıq istehsaldan çıxarılan məhsullarını satışdan çıxarmazdan əvvəl endirimli qiymətlərlə təklif edir. Eyni zamanda, yeni kolleksiyanın gəlməsi ilə köhnə kolleksiya məhsullarının ucuz qiymətlərlə satılması da endirimlərin səbəblərindən biridir. Qida məhsulları sahəsində isə endirimlərə xüsusilə diqqətli yanaşmaq lazımdır. Bəzi hallarda endirimə çıxarılan məhsulların istifadə müddəti hələ bitməyib, lakin saxlanma şəraiti düzgün olmadığı üçün məhsul tezliklə xarab ola bilər. İstehlakçılar belə hallarda məhsulun qablaşdırmasını, saxlanma şəraitini və son istifadə tarixini diqqətlə yoxlamalıdırlar. Görünüşündə dəyişiklik, qoxuda fərqlilik və ya qablaşdırmanın zədələnməsi kimi hallar məhsulun yararsız ola biləcəyinə işarə edə bilər. İstehlakçılar bütün hallarda diqqətli olmalıdır. Məhsulun istehsal və son istifadə tarixinə baxmalıdırlar".

***Arzu Qurbanlı***

### ELAN

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən Quliyev Abdulla Bayram oğluna verilmiş DSX N 0012371 vəsiqə itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**